

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Mətbuat Şurasından bəyanat...



8

# Daş kitabələrdə yaşanılan tariximiz



4

SƏS

№ 208 (6891)

15 noyabr 2023-cü il.

Qiymәti 60 qәpik

# Qərb

## Orta Asiyaya can atır

*Avropa region ölkələrinə yeni əməkdaşlıq formatı təklif edir, yoxsa?..*



7

### YAP, AK Parti və UBP arasında Anlaşma Memorandumu imzalanıb




5

### Doqquzu estetik olan gözəllik



11

### Çeşid bol, keyfiyyət yox



12

### Fransa Ermənistanı silahlandırırsa...



9

### Metod, yoxsa şiddət?



13

# Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, həmin tədbir çərçivəsində Özbəkistan Prezidenti ilə görüşünü məmnunluqla xatırladı.

Dostluq və qardaşlıq münasibətlərimizin gündəliyinin çox geniş olduğunu və müxtəlif istiqamətləri əhatə etdiyini deyən Prezident İlham Əliyev iqtisadi, sənaye, o cümlədən sənaye kooperasiyası, kənd təsərrüfatı və digər sahələrdə nəzərdə tutulan birgə layihələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfəri zamanı qarşıdakı illərdə əməkdaşlığın gündəliyi və qarşıya qoyulan məqsədlərə nail olunması ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi.

Laziz Kudratov, ilk növbədə, Özbəkistan Prezidentinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə



minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycan və Özbəkistan prezidentləri arasında mövcud olan dostluq münasibətlərinin əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə qalxması üçün möhkəm əsas yaratdığını bildirdi, hər iki dövlət başçısının qarşılıqlı səfərlərinin və görüşlərinin strateji əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.

Laziz Kudratov vurğuladı ki, Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar və əhalinin rifah halının daha da yaxşılaşdırılması Özbəkistanda böyük sevinc doğurur. Qonaq, eyni zamanda, qeyd etdi ki, özbək xalqı Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunmuş hərbi paradı qürur hissi ilə izləyib. Azərbaycan Prezidentinin qətiyyəti və möhkəm iradəsi, uğurlu siyasəti nəticəsində tarixi ədalətin bərpa edilməsinin mümkün olduğunu vurğulayan Laziz Kudratov Şuşa və Füzuliyə səfərləri zamanı orada gedən böyük yenidənqurma və bərpa işlərinin şahidi olduğunu dedi.

Görüşdə sənaye kooperasiyası, iqtisadi, ticari, nəqliyyat, logistika əlaqələrinin dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı.

## Türkiyəli nazirlər Azərbaycana səfərə gəlir



Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Mehmet Özhaseki və nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu Azərbaycana səfərə gəlir. SİA-nın məlumatına görə, M.Özhaseki noyabrın 15-də Bakıda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək Türk Dünyasının II Meteorologiya Forumunda iştirak edəcək.

Türkiyəli nazir tədbirdən əvvəl Şəhidlər xiyabanını və Türk Şəhidliyini ziyarət edəcək.

A.Uraloğlu isə noyabrın 16-da Zəngilanda Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi və Elm və Təhsil Nazirliyinin (ETN) İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları" mövzusunda keçiriləcək beynəlxalq elmi-praktik konfransa qatılacaq.

## Zakir Həsənov italiyalı həmkarı ilə görüşüb



Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilən "Dubai Airshow 2023" beynəlxalq sərgisində iştirak etmək məqsədilə bu ölkədə səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosetto ilə görüşüb. Bu barədə SİA-ya Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Görüşdə Azərbaycan və İtaliya arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.





## Milli Məclis gələn ilin dövlət büdcəsini I oxunuşda qəbul edib



Milli Məclisin bu gün keçirilən plenar iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. SİA-nın xəbərinə görə, layihədə növbəti il və sonrakı 3 il üzrə çağırışlar, daxili və xarici mühit faktorları nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində təklif olunur.

Bu, cari il üçün təsdiq olunmuş göstərici ilə müqayisədə 3 milyard 409 milyon manat, cari ilin yenidən baxılma ilə əhəmiyyətli dərəcədə artırılıb dövlət büdcəsi xərclərindən 3 milyard, nisbətdə isə 138 milyon manat çoxdur. Xərclərin 93 faizi və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

2024-cü ilin gəlirləri 2023-cü il üçün təsdiq olunmuş gəlirlər proqnozu ilə müqayisədə 283 milyon və ya 0,8 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 493 milyon manat və ya 11,4 faiz çox olacaq. Gəlirlərin qeyri-neft sektoru üzrə və neft sektoru üzrə bölgüsünün bərabər olacağı gözlənilir. Dövlət büdcəsinin neft-qaz sektorunda məcmu gəlirləri 17 milyard 164 milyon manat nəzərdə tutulub. Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 13 milyard 865 milyon manat, cari ilin proqnozu ilə müqayisədə 1 milyard 122 milyon manat və ya 7,5 faiz çox, qeyri-neft sektoru üzrə isə 9 milyard 890 milyon manat, cari illə müqayisədə 905 milyon manat və ya 10,1 faiz çox vəsaitin təmin olunması nəzərdə tutulur. Dövlət Gömrük Komitəsinin xətti ilə növbəti il üçün 5 milyard 900 milyon manat daxilolmalar nəzərdə tutulur və bu cari illə müqayisədə 172 milyon manat və ya 3 faiz çox olacaq. 2024-cü ildə dövlət büdcəsinin sair gəlirləri üzrə 388 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə 831 milyon manat vəsaitin daxil olması proqnozlaşdırılır.

Gələn ilin dövlət büdcəsi xərclərinin 51,2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən olan müdafiə və milli təhlükəsizlik xərclərinə 17,5 faiz və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub və bu 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6 faiz çoxdur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair birinci dövlət proqramının icrası üçün 4 milyard manat, Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə əlavə olaraq 1 milyard 509 milyon manat, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası üçün 249 milyon manat vəsait yönəldiləcək. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə ödəniləcək kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsi vəsaiti hesabına maliyyə yardımının göstərilməsi və işğaldan azad edilmiş ərazilərdə müvafiq strukturların yaradılması üçün 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Növbəti ilin icmal büdcəsinin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. Kəsirin ÜDM-ə nisbəti 2,9 faiz təşkil edəcək.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

# YAP: 31 il suveren və bütöv Azərbaycan uğrunda

Müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu ölkəmizin siyasi həyatında önəmli rol oynayan Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 31 ili tamam olur. Yeni Azərbaycan Partiyası həqiqətən də son 31 illik müstəqillik tariximizin böyük salnaməsini təşkil edir. Müstəqillik tariximizin son dərəcə ağır və keşməkeşli günlərində ölkəmizin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında birləşən Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmış və Azərbaycanın gələcək taleyini müəyyən etmişdir. Tarixi yolda xalqa və vətənə, dövlətçiliyə xidmət edən YAP Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək, dövlətçiliyimizin möhkəmlənməsi və dinamik inkişafında müstəsna rol oynayıb. YAP-ın keçdiyi yolda əldə olunan qələbələrin kökündə Ümummilli Lider Heydər Əliyevin ideyaları, Onun tərəfindən müəyyənləşdirilmiş strateji xətt, inkişaf strategiyası dayanır.



Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Tarixin silinməz zamanına çevrilən həmin məqamlar müstəqil dövlətimizi təhlükələrdən xilas etdi və bugünki dünyada nüfuz qazanmış müstəqil Azərbaycanın adını zirvələrə yüksəltdi.

## AZƏRBAYCAN XALQININ ÇAĞIRIŞ İFADƏSİ

Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən Azərbaycan xalqının rifahının yaxşılaşdırması, dövlətçiliyin qorunub saxlanılması, ölkə iqtisadiyyatının sürətli inkişaf yoluna çıxarılması üçün gərgin fəaliyyət göstərmişdir. Ötən əsrin 80-ci illərinin sonlarından etibarən, Azərbaycanın üzləşdiyi böhran və fəlakət xalqın sabaha olan ümidlərini demək olar ki, qırmışdı. Qarabağ cəbhəsində cərəyan edən məğlubiyyətlər davam edirdi. Qarabağ əhalisi doğma yurdlarından qovulur, onlara vəhşicəsinə divan tutulur, ev-eşikləri yandırılırdı. Azərbaycanın parçalanması təhlükəsi xalqımızın Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı üçün çağırışlarını gücləndirirdi. Azərbaycanın çətin günlərində bütün xalqımızın gözü Naxçıvana dikilmişdi. Çünki yeganə ümid yeri Naxçıvan Ali Məclisinin sədri, qəlbi daima xalqının qəlbi ilə döyünən Heydər Əliyev idi. Yalnız Heydər Əliyev kimi güclü və dəmir iradəli Şəxsiyyət ölkəni yaranmış vəziyyətdən xilas edə bilərdi. Xalqın günü-gündən Heydər Əliyev şəxsiyyətinə olan inamı daha da artaraq ümumxalq məhəbbətinə çevrilmişdi. Həmin ağır dönəmlərdə ölkənin taleyinə biganə olmayan ziyalılar və sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq, Ulu Öndər Heydər Əliyevlə görüşlər keçirir, xalqı üzləşdiyi fəlakətlərdən, çətinliklərdən çıxarması üçün, Ondan kömək istəyirdilər. Həmin illər Azərbaycan üçün ən ağır və məsuliyyətli dövr idi. Elə həmin vaxtlar 91 nəfər Azərbaycan ziyalısı Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlamışdı. Bu müraciət, bütövlükdə, Azərbaycan xalqının çağırış ifadəsi idi. Həmin müraciətdə Heydər Əliyevin yeni yaradılacaq partiyaya - Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi xahiş edilirdi. Bu, heç də asan bir məsələ deyildi. Çünki Azərbaycanda köklü islahatlar aparılmalı, xalqın pozulmuş, tapdalanmış hüquqları bərpa edilməli və güclü vətəndaş cəmiyyəti qurulmalı idi. Beləliklə, çox çətin vəziyyətdə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Ulu Öndərin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası yaradıldı. Azərbaycan dövlətçiliyinin məhv olmaq təhlükəsi ilə qarşılaşdığı zamanda 1992-ci ilin noyabr ayının 21-də yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli rol oynadı.

## XALQIN SABAHINA HESABLANMIŞ MÜTƏRƏQQİ SİYASƏT

Qısa zaman kəsiyində, YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. YAP Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirdi. Qarşıda ölkəni çətin və böhran vəziyyətindən çıxarmaq kimi ciddi məqsəd var idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Dahi Şəxsiyyət Heydər Əliyevin 1993-cü il prezident seçkilərində xalqın səsini qazandı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışı və qətiyyətli addımları nəticəsində, çox keçmədi ki, ölkə böhran vəziyyətindən çıxarıldı. Bütün sahələrin inkişafına xüsusi diqqət yetirildi. Xalqın sabahına hesablanmış mütərəqqi siyasət həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında və beynəlxalq əlaqələrdə dönüş yarandı. Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin elan olunmasına, "Əsrin müqaviləsi"nin imzalanmasına, 1995-ci ildə Konstitusiyasının qəbul edilməsinə, Şərqlə Qərbi birləşdirən Qədim İpək Yolunun bərpa edilməsinə və digər mühüm əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olundu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qorunması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantına çevrildi. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da, ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Müstəqiliyin ilk illərində səriştəli, yalnız milli dövlətçilik mənafelərinə xidmət edən hakimiyyətin yoxluğu ölkədə idarəolunmaz bir vəziyyətin yaranmasına, cəmiyyətin daxilində qarşıdurmaların geniş vüsət almasına gətirib çıxarmışdı. Azərbaycan dövlətinin mövcudluğunu şübhə altına alan ictimai-siyasi situasiya xalqda gələcəyə böyük inamsızlıq yaratmışdı.

## "ONUN DƏMİR İRADƏSİ, XALQIN ONA OLAN SEVGİSİ, RƏĞBƏTİ AZƏRBAYCANI, BAX, BU MÜSTƏQİLLİK YOLUNA ÇIXARIBDIR"

Sözsüz ki, partiyanın yüksək nüfuzu, bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti ilə bağlıdır. Bu gün artıq YAP-ın yaranma tarixindən 31 il ötür. Azərbaycanda gedən bütün inkişaf, məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi Ulu Öndər Heydər Əliyevdir. Məhz Onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu. O ağır vəziyyətdə, məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, - Onun dəmir iradəsi, xalqın Ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik".

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük uğurlar qazanmışdır. Son 18 ildə görülən işlər bunun deməyə əsas verir. Möhtərəm Cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sıraları getdikcə daha da artmaqdadır. Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına olan dərin inamdan və ehtiramdan irəli gəlir. Bu gün Yeni Azərbaycan Partiyasının qarşısında yeni vəzifələr durur. Bu vəzifələrin ən başlıcası Ümummilli Liderimiz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, onun regionun və dünyanın qüdrətli dövlətləri sırasında liderliyini qorumaqdadır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qətiyyətli və uğurlu siyasət Azərbaycanı güclü dövlətə çevirmişdir.

Yeni Azərbaycan Partiyası da hər zaman öz fəaliyyətini günün tələblərinə uyğun quran siyasi təşkilatdır. Ümummilli Lider, Yeni Azərbaycan Partiyasının banisi Heydər Əliyevin qurduğu, yaratdığı müstəqil Azərbaycan inamlı inkişaf yolundadır. Buna dövlətimizin gücü və potensialı var. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilib və Onun əbədiliyi təmin edilib. Ötən iyirmi il, aydın şəkildə göstərdi ki, İlham Əliyevin Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində dövlət başçısı verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir.

Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atmışdı. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. YAP-ın VII Qurultayı həm ölkəmiz, həm də partiya üçün əlamətdar və mühüm ictimai-siyasi hadisəyə çevrildi. VII Qurultayda partiyanın yeni hüquqi-normativ sənədləri qəbul edildi. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni nizamnamədə öz əksini tapmış oldu. Azərbaycan Prezidenti İlham Əliyev Qurultayda çıxışı zamanı bildirdiyi kimi, "Hesab edirəm ki, partiya yenilənmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın." Qurultayda partiyanın daha təkmil idarəetmə forması müəyyən olundu. Xüsusilə də, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın partiyanın Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Mehriban xanım Əliyevanın partiyanın Sədrinin birinci müavini təyin edilməsi yeni mərhələdə Yeni Azərbaycan Partiyasının inkişafına təkandır və bu partiyanın və ölkəmizin yeni nailiyyətlər əldə etməsində mühüm əhəmiyyət daşıyır.Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazanıb. Nəticədə Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olunub. Yəni, Azərbaycan artıq yeni reallıqlar yaradıb. Bu reallıqlar həm ölkəmiz, həm də bütövlükdə region üçün yeni perspektivlər vəd edir, yeni çağırışlar yaradır. "İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır" - deyən Cənab Prezident bildirib ki, bölgədə yeni əməkdaşlıq imkanları yaranmışdır: "Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb."Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qətiyyətli və uğurlu siyasət Azərbaycanı güclü dövlətə çevirmişdir. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu möhtəşəm tarixi qələbə qazandı. Azərbaycanın əldə etdiyi parlaq Zəfər eyni zamanda, yeni reallıqlar yaratdı. Yeni Azərbaycan Partiyası da hər zaman öz fəaliyyətini günün tələblərinə uyğun quran siyasi təşkilatdır. Ümummilli Lider, Yeni Azərbaycan Partiyasının banisi Ulu Öndər Heydər Əliyevin qurduğu, yaratdığı müstəqil Azərbaycan inamlı inkişaf yolundadır.

*Zümrüd BAYRAMOVA*

# Daş kitabələrdə yaşanılan tariximiz



Azərbaycan xalqı 30 ilə yaxın bir zamandan sonra işğaldan azad olunmuş torpaqlarımızda erməni vəhşiliyinin izləri ilə daha yaxından tanış olur. Ermənilərin işğal etdikləri ərazilərimizdə törətdikləri vandallığın nəticəsi olaraq tarixi-mədəni milli irsinə qarşı böyük zərbələr endirilib. İşğal altında olan ərazilərdə abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Ermənistan qanunsuz silahlı birləşmələri tərəfindən dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına küllü miqdarda ziyan vurub. Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına zidd olsa da, işğal altında və Ermənistanda qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib. Real sənədlərə nəzər salsaq görərik ki, həmin ərazilərdə təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz kimliklərini nəinki Azərbaycan xalqına, eləcə də bütün dünyaya göstərdilər. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə-yeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir".

## TARİXİMİZDƏN İZ SALAN MƏDƏNİ-DİNİ ABİDƏLƏRİMİZ

Şuşa, Ağdam, Qubadlı, Zəngilan və digər şəhərlərimizdə Ermənistan mədəni soyqırımı törədib, bu ərazilərdə dini ziyarətgah, məscid, muzey, arxeoloji yer, məzarlıq və çoxlu sayda digər mədəni və dini abidələri məhv edilib. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir. Onu da vurğulayaq ki, həmin illərdə ermənilərin tapdağı altında olan ərazilərdə 12 muzey, 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray qarət edilib. Beş minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər Tarix Muzeyi və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz eksponatları oğurlanıb. Erməni təcavüzkarları həmin muzeylərdə olan Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünyaşöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materialları qarət edərək Ermənistana və digər ölkələrə daşıyıblar. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilmiş ərazilərimizdə erməni vandalizminə məruz qalmış dini, tarixi və yerli memarlıq abidəsi hesab edilən binaların bərpası və yenidən qurulmasına xüsusi önəm verirlər. Məlumdur ki, Vaqifin məqbərəsi artıq bərpa edilib. Ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimiz - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri əzəli torpağımıza gətirildi. Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açılıb, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyulub. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışı olub. Qeyd edək ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir. 2021-ci ilin oktyabr ayından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib. Yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib. Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. Ekspozisiyada Azərbaycan Milli Kino-Foto Sənədləri Arxivi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun materialları, həmçinin elmi ədəbiyyat mənbə qismində istifadə edilib.

İşğaldan azad olunan ərazilərdə genişmiqyaslı quruculuq işləri, mədəni-dini abidələrimizin bərpası davam edir.

## ZAMANIN GERÇƏKLİKLƏRİ - ŞUŞA TARİXİ ABİDƏLƏRİNƏ VERİLƏN İKİNCİ HƏYAT

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub. Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir.

## "BÜTÜN QARABAĞ ƏRAZİSİNDƏKİ MƏSCİDLƏRİMİZDƏ AZAN SƏSLƏRİ EŞİDİLƏCƏK, DUALAR OXUNACAQDIR!"

Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamızda Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanış oldular. Hazırda məsciddə "PAŞA Holding"in dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa işləri həyata keçirilir.

Məscid Şuşa şəhərinin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Düzbucaqlı quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri var. Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılıb. Burada da məscid, bulaq, kiçik meydan, hamam olub. Lakin işğal zamanı onlar da erməni vandalizminə məruz qalıb. Sovet hakimiyyəti illərində isə Mamayı məscidi poeziya evi kimi fəaliyyət göstərib. Bərpa işləri Mamayı bulağını da əhatə edir. Vaxtilə Mamayı məhəlləsindəki bulağın yuxarı hissəsində kitabə olub. Kitabədə bulağın 1900-cu ildə Səməd ağa Cavanşir tərəfindən tikildiyi yazılmışdır. Ermənilər Şuşanı işğal altında saxladığı dövrdə şəhərdəki bir çox abidələr kimi Mamayı bulağını da erməniləşdirməyə çalışıblar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunub. Bundan başqa, ermənilər saxtakarlıq edərək bulağın daşlarının üzərinə erməni və rus dillərində yazılmış lövhə də həkk ediblər. Aparılacaq işlər zamanı Mamayı məscidinin və bulağın tarixi görkəmi bərpa olunaraq istifadəyə veriləcək.

Bununla yanaşı, Şuşada Heydər Əliyev Fondu tərəfindən Çöl Qala məscidində və bulağında bərpa işləri aparılır. Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Məscid XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikdirilib. Məscid minarəsiz formada inşa edilib. Onun forması Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı olub. Məscidin ümumi girişi asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarət olub. İbadət ocağının interyeri tamamilə İslam memarlığına uyğundur. Məscidin daxili hissəsi dörd ədəd səkkizguşəli daş sütunla bəzədilib. Məscidin taleyi Şuşa şəhəri 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra şəhərin digər tarixi abidələri kimi olub və bu dini-tarixi abidəmiz də dağıdılaraq talan edilib.

"Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!" - deyə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva bildirmişdir. Artıq məscidlərimizdə azan səsləri eşidilir, dualar oxunur.

## YADDAŞIMIZIN QAPALI QALAN MƏQAMLARI AÇILIR

Çöl Qala məscidinin yaxınlığında məscidin üslubunda tikilən XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildəndən sonra bulaq da dağıdılıb, daş kitabələri də məhv edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində "Qızlar gimnaziyası" tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanış olublar. Xatırladaq ki, Şuşada müstəqil qız məktəbi 1875-ci il oktyabrın 26-da Şuşa əhalisinin təşkil etdiyi "Xeyriyyə cəmiyyəti" tərəfindən təsis olunub. Dini etiqadından və mənşəyindən asılı olmayaraq, bütün qızlara burada təhsil almaq imkanı yaradılmışdı. Tədris planına rus dili, hesab, ana dilində oxuma, yazma, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq daxil idi. Eyni zamanda, məktəbdə milli mahnılar öyrədilir, təbiət, tarix və fizikadan dərs verilirdi. Məktəbdə təhsil ödənişli olsa da, kasıb ailələrin övladları təhsil haqqından azad idilər. Əlavə təhsil haqqı verənlərə fransız və alman dilləri də tədris edilir, musiqi öyrədilirdi. Qızların rus dilində təhsilinə diqqəti artırmaq və xərcin bir qismini xəzinədən ödəmək şərti ilə Şuşa qız məktəbi 1894-cü ildə Şuşa Marinski qız məktəbi adını aldı və dördsinifli məktəbə çevrildi. Məktəb 120 şagirdlə fəaliyyətə başladı. Artıq 1895-1896-cı tədris ilində burada 147 qız təhsil alırdı. Bu məktəbin təşkili azərbaycanlı qızların da rus dilində təhsilinə şərait yaratmışdı. Şuşa Marinski qız məktəbi qadınların təhsili sahəsində, azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayıb. 1894-cü ildə Şuşada iki şəxsi qız məktəbinin əsasında Müqəddəs Mariya qız məktəbi yaradılmış, bununla da azərbaycanlı qızların Avropa təhsilinə yolları açılmışdı. Sovet məkanında yaşadığımız illərdə bina internat məktəbi kimi də fəaliyyət göstərib. Gələcəkdə buranın dekorativ tətbiqi sənət mərkəzi və mədəni sahələr üzrə inzibati bina kimi istifadə olunması planlaşdırılır.

Onu da qeyd edək ki, hər daşında tarix yaşanılan Şuşamızın hər küçə və meydanında yaddaşımızın qapalı qalan məqamları açılır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri ilk dövrlərdə Şuşa adı ilə yanaşı, xanın şərəfinə Pənahabad da adlandırılırdı. Sonrakı dövrdə şəhər sadəcə Qala adlandırılıb. Bir müddət sonra xalq qalanı Şuşa qalası, sonrakı dövrdə isə sadəcə Şuşa adlandırıb. Şuşa qalasının üç əsas qapısı var idi: Gəncə, İrəvan və Ağoğlan qapıları. Mənbələrdə qeyd olunduğu kimi, hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onlar Şuşanın XIX əsrdə çəkilmiş bütün Baş planlarında qeyd edilir. Şəhər işğaldan azad edildikdən dərhal sonra tarixi Şuşa qalasında bərpa işləri görülüb. Qala üzərindəki Şuşa yazısı bərpa edilib.

Erməni barbarlığının nəticəsi olaraq dağıdılan abidələrimiz qısa bir zamanda bərpa olunacaq və törətdikləri əməllərə görə, qanun qarşısında cavab verəcəklər. Qarabağdakı bütün müsəlman və xristian-alban abidələri Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri ilə YAP və AK Partinin nümayəndə heyətləri arasında görüş keçirilib









**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində səfərdədir.**

Səfər çərçivəsində noyabrın 14-də "Boğaz şəhidliyi" ziyarət edilib, 1974-cü ildə həyata keçirilən "Barış" hərəkatında şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi dərin ehtiramla yad olunub.

Nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin yaradılmasının 40-cı ildönümü münasibətilə keçirilən təntənəli Cümhuriyyət yürüşündə də iştirak edib.

Bundan sonra Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstünlə YAP nümayəndə heyəti və qardaş Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Alanın rəhbərlik etdiyi AK Parti nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə xalqlarımız və hakim partiyalar arasında əməkdaşlığın əhəmiyyətindən və perspektivlərdən bəhs edilib.

Diqqətə çatdırılıb ki, YAP nümayəndə heyətinin 2022-ci ilin dekabr ayında Şimali Kipr Türk Cümhuriyyətinə səfəri çərçivəsində keçirilmiş üçtərəfli görüş yeni formatda işbirliyinin əsaslarının yaradılması baxımından mühüm əhəmiyyətə malik olub və ötən müddət ərzində təmasların sıxlaşdırılması istiqamətində səmərəli fəaliyyət həyata keçirilib.

Bildirilib ki, Azərbaycanın şanlı Zəfəri - ərazi bütövlüyünün və suverenliyinin tam bərpası nəticəsində yaranmış reallıqlar fonunda Türk dünyasında da münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, eyni zamanda, dost və qardaş xalqlar yeni çağırışlarla üzləşiblər. Belə bir şəraitdə Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin hakim partiyaları arasında əməkdaşlığın dərinləşdirilməsi xüsusi önəm daşıyır.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər müzakirə olunub.

Noyabrın 14-də, həmçinin Şimali Kipr Türk Cümhuriyyətinin qurucusu və ilk Prezidenti Rauf Denktaşın və Kipr Türk xalqının azadlıq mübarizəsinin öndərlərindən olan Fazil Küçükün məzarları ziyarət edilib.

YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Zorlu Törenin adından verilən rəsmi ziyafətdə iştirak edib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvləri Pərvin Kərimzadə və Rəşad Mahmudov, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin məsləhətçisi Nizami Məmmədov daxildir.

# YAP, AK Parti və UBP arasında Anlaşma Memorandumu imzalanıb

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Şimali Kipr Türk Cümhuriyyətinə (ŞKTC) səfəri davam edir.**

Səfər çərçivəsində noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası (UBP) arasında Anlaşma Memorandumunun imzalanması mərasimi olub.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Cümhuriyyətinin İstiqlal Marşı səsləndirilib. Sonra müasir müstəqil Azərbaycanın banisi, Ümummilli Lider Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin qurucusu, Böyük Öndər Mustafa Kamal Atatürkün, Şimali Kipr Türk Cümhuriyyətinin qurucusu və ilk Prezidenti Rauf Denktaşın, Kipr Türk xalqının azadlıq mübarizəsinin öndərlərindən olan Fazil Küçükün və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.












YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlcə Şimali Kipr Türk Cümhuriyyətinin yaradılmasının 40-cı ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası adından təbriklərini çatdırıb. O, Azərbaycan, Türkiyə və Şimali Kipr Türk xalqları arasında münasibətlərin inkişafının mühüm prioritetlərdən biri olduğunu diqqətə çatdırıb. 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanan, işğal faktını və separatizmi birdəfəlik aradan qaldıraraq ərazi bütövlüyünü bərpa edən Azərbaycanın regional və beynəlxalq miqyasda önəmli geostrateji reallıqlar formalaşdırdığını vurğulayan Tahir Budaqov ölkəmizin tarixi Zəfərinin Türk dövlətləri üçün də yeni imkanlar və perspektivlər yaratdığını bildirib. YAP Sədrinin müavini mövcud gerçəkliklər fonunda Türk dövlətlərinin ortaq hədəflərə yönəlik birgə təşəbbüslərinin olduqca önəmli olduğunu söyləyib. "Bu kontekstdə Türk dövlətlərinin hakim siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də zəruridir" ,- deyə YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib.

2021-ci il iyunun 2-də Əməkdaşlıq Protokolu imzalayan və ötən müddət ərzində ortaq maraqlara əsaslanan mühüm tədbirlər reallaşdıran Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının münasibətlərinin nümunəvi xarakter daşıdığını diqqətə çatdıran Tahir Budaqov yeni mərhələdə YAP, AK Parti və UBP arasında üçtərəfli əlaqələrin uğurla inkişaf edəcəyinə və qarşılıqlı faydalı əməkdaşlığın səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib. YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Anlaşma Memorandumu çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və prioritetləri müəyyənləşdirən çox önəmli sənəddir. "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü, Şimali Kipr Türk Cümhuriyyətinin isə 40-cı ildönümlərində qardaş xalqların hakim siyasi partiyaları arasında Anlaşma Memorandumunun imzalanması mühüm mənəvi-siyasi əhəmiyyətə malik hadisə kimi tarixi önəm daşıyır" ,-deyən YAP Sədrinin müavini əlavə edib ki, Memorandumdan irəli gələn vəzifələrin icra olunması, qarşılıqlı səfərlərin həyata keçirilməsi, ortaq maraqlara əsaslanan tədbirlərin reallaşdırılması, fikir və təcrübə mübadiləsinin aparılması xalqlarımız arasında əməkdaşlığın dərinləşməsinə töhfə olacaq, partiyalararası münasibətlərə dinamizm gətirərək müştərək hədəflərə çatmağa imkan verəcək.

AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala Azərbaycan, Türkiyə və Şimali Kipr Türk xalqları arasında əlaqələrin inkişafının siyasi öncəliklərdən biri kimi diqqət mərkəzində saxlanıldığını vurğulayıb. Azərbaycanın Qarabağ Zəfərinin regionda yeni nizam yaratdığını söyləyən Efkan Ala ölkəmizin suverenliyini tam bərpa etməsini tarixi hadisə kimi dəyərləndirib. Azərbaycan ilə Türkiyənin təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini diqqətə çatdıran AK Parti Sədrinin birinci müavini Türk dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu bildirib. "Yeni dönəmdə Azərbaycan, Türkiyə və Şimali Kipr Türk xalqları arasında münasibətlərin inkişafı maraqlarımızın təmin olunması və strateji hədəflərin reallığa çevrilməsi baxımından böyük əhəmiyyət daşıyır" ,- deyən Efkan Ala iqtidar partiyaları arasında münasibətlərin bu prosesə layiqli töhfə olacağına inamını ifadə edib.

Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında imzalanan Anlaşma Memorandumunun əhəmiyyətindən bəhs edən Efkan Ala "Memorandumda əksini tapan məsələlər bizim niyyətimizi - ortaq dəyərlərə və milli maraqlara əsaslanan münasibətlərin inkişafı istiqamətində iradəmizi əks etdirir, qarşıdakı dövr üçün hədəflərimizi müəyyən edir. Üçtərəfli təmasların sıxlaşdırılması çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinə etibarlı zəmin yaradır. Anlaşma Memorandumu hakim partiyalar arasında məqsədyönlü işbirliyinin yol xəritəsi olacaq, sənəddə əks olunan öhdəliklərin yerinə yetirilməsi bizə yeni uğurlar qazandıracaq",- deyib.

Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstün beynəlxalq münasibətlər sistemində hazırkı reallıqlar fonunda Türk dünyasının yeni çağırışlarla üzləşdiyini diqqətə çatdırıb. Belə bir şəraitdə Türk xalqlarının həmrəylik nümayiş etdirməsinin və səmərəli, nəticəyönümlü əməkdaşlıq qurmasının vacib prioritetlərdən olduğunu bildirən Ünal Üstün Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin bütövlükdə Türk dünyası üçün müstəsna əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin qardaşlıq nümunəsi ortaya qoyaraq münasibətlərin inkişafına xüsusi önəm verdiklərini və prinsipial mövqe nümayiş etdirdiklərini söyləyən Baş nazir hakim partiyalar arasında münasibətlərin xalqlarımızın maraqlarının təmin olunmasına yönəldiyini qeyd edib. "Ulusal Birlik Partiyası AK Parti və Yeni Azərbaycan Partiyası ilə münasibətlərin inkişafında son dərəcə maraqlıdır",- deyən partiya sədri Anlaşma Memorandumunun yeni formatda - üçtərəfli əlaqələr müstəvisində əməkdaşlığa təkan verəcəyini bildirib. "Biz bu gün xalqlarımızın maraqlarının, partiyalarımızın hədəflərinin dəqiq əks olunduğu Anlaşma Memorandumu imzalamaqla qarşılıqlı faydalı əməkdaşlığın möhkəm əsaslarını yaradırıq. Əminəm ki, birlikdə daha böyük uğurlara imza atacağıq",- deyə Ünal Üstün bildirib.

Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala və Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, UBP-nin Sədri Ünal Üstün imzalayıblar.

# Qərb

# Orta Asiyaya can atır

*Avropa region ölkələrinə yeni əməkdaşlıq formatı təklif edir, yoxsa?..*

ANALİTİK

**Avropanın "ağsaqqalı" Fransanın ardınca Almaniya da Şərqdə, daha konkret desək Orta Asiyada "dost" axtarışındadır. Guya iqtisadi tərəfdaşlar axtarırlar. Afrikadan, qovulduqları digər regionlardan qazandıqlarını və əslində bu gün itirdiklərini asiyalıların hesabına kompensasiya etməyə çalışırlar. Avropanın enerji sektoru indiyədək tam olaraq kənar ölkələrin hesabına ödənilirdi, bu gün isə ənənəvi "tərəfdaşlar" onlardan imtina ediblər. Çünki avropalılar etibarsızdırlar, dostluqları "darı sovulana" qədərdir. Orta Asiya ölkələrinə yürüşlərinin əsas məqsədi də "xam torpaqlar" ələ keçirmək, Rusiyanın hegemonluğunu neytrallaşdırmaqdır.**

İtaliya prezidenti Sercio Mattarella Özbəkistanla "İtaliya - Mərkəzi Asiya" dialoquna başlayıb. Noyabrın 10-da Daşkənddə prezident Şavkat Mirziyoyev ilə danışıqlar aparılıb və nəticədə ölkələr arasında strateji tərəfdaşlığı genişləndirən sənədlər paketi imzalanıb. İtaliya tərəfi Özbəkistanın ÜTT-yə erkən üzv olmaq istəyini və Avropa İttifaqı ilə Genişləndirilmiş Tərəfdaşlıq Sazişinin qəbulunu dəstəklədiyini bildirib. İtaliya prezidentinin səfərinin eyni dərəcədə mühüm hissəsi təhsil və turizm məsələlərinə həsr olunub. Sercio Mattarella qızı Laura Mattarellanın (İtaliyanın birinci xanımı statusu ilə) şirkətində İtaliyanın arxeoloji missiyasının fəaliyyət göstərdiyi Səmərqənddə olub.

Bu, İtaliya prezidentinin Özbəkistana cavab səfəridir. 2023-cü ilin iyununda Özbəkistan lideri Şavkat Mirziyoyev İtaliyaya səfər edib. Eyni zamanda, siyasət, təhlükəsizlik, iqtisadiyyat, enerji və mədəni-humanitar sahələrdə ikitərəfli əməkdaşlığa təkan verən Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə və bir sıra sənədlər imzalanıb. Milanda keçirilən biznes forumun yekunlarına görə investisiya sazişləri portfeli 9 milyard avro təşkil edib. İtaliya şirkətləri Özbəkistanda biznesin inkişafı üçün bir neçə perspektivli sahələr müəyyən ediblər. Onların arasında toxuculuq sənayesi, tikinti materiallarının istehsalı, metallurgiya, kimya sənayesi, avtomobil sənayesi, elektronika, kənd təsərrüfatı və kənd təsərrüfatının emalı var.

Şavkat Mirziyoyev və Sercio Mattarella arasında hazırkı danışıqlar məntiqi olaraq Daşkəndin Avropa ölkələri ilə əməkdaşlığı dərinləşdirmək siyasətini davam etdirir. Yada salaq ki, bu yaxınlarda Lüksemburqda Aİ və Mərkəzi Asiya ölkələri enerji sektorunda əməkdaşlığı genişləndirməyə, Aİ ölkələri üçün vacib ehtiyatların hasilatı və emalı sahəsində əməkdaşlığı genişləndirməyə hazır olduqlarını bildirən "yol xəritəsi" təsdiqlənib. Aİ-nin xarici siyasət rəhbəri Josep Borrell qeyd edib ki, Avropa İttifaqı qlobal çağırışların öhdəsindən gəlmək üçün tərəfdaşlıq təklif edərək, Mərkəzi Asiya ölkələri ilə strateji əməkdaşlığı dərinləşdirməyə çalışır. İtaliya Aİ-nin üzvü kimi Şərq Tərəfdaşlığı strategiyasını, xüsusən də Mərkəzi Asiya ilə bağlı fəal şəkildə həyata keçirir. Baş nazir Giorgia Meloni regionun strateji əhəmiyyətini vurğulayaraq, sosial-iqtisadi və mədəni öhdəliklərin yerinə yetirilməsi üçün "1+5" görüş formatını təklif edib.

Ekspertlər hesab edir ki, İtaliya regionun siyasi cəhətdən ən sabit ölkəsi kimi Mərkəzi Asiyaya Özbəkistan vasitəsilə daxil olmaq qərarına gəlib. Özbəkistanda iqtisadi, sosial və hüquqi sahədə aparılan islahatlar Qərb institutları tərəfindən müsbət qiymət alır. Buna görə də İtaliya Özbəkistanın ÜTT-yə tez daxil olmaq və Avropa İttifaqı ilə genişlənmiş tərəfdaşlıq sazişi imzalamaq istəyini dəstəkləyir.



Özbəkistan üçün İtaliya yüksək texnologiyalar baxımından maraq kəsb edir, ona görə də Daşkənd yüksək texnoloji səviyyəyə malik İtaliya şirkətlərini Özbəkistan iqtisadiyyatının modernləşdirilməsində iştirak etməyə dəvət edir. Bu gün Özbəkistanda İtaliya kapitalının iştirakı ilə 52 müəssisə, o cümlədən 33 birgə müəssisə və 100 faiz İtaliya kapitalı ilə 19 müəssisə fəaliyyət göstərir. Ən çox üstünlük verilən sahə Özbəkistan və İtaliya arasında ticarətə aiddir. Bu ilin doqquz ayı ərzində ikitərəfli ticarət dövriyyəsi təxminən 390 milyon dollar təşkil edib.

"Özbəkistan Avropa ilə Asiya arasında körpüdür, tərəfdaşlıq baxımından strateji ölkədir, böyük potensiala malikdir. Biz Özbəkistanın müasir inkişafında iştirak etmək istəyirik və çoxtərəfli əlaqələrimizi dərinləşdirməyə hazırıq. Sahibkarlar qabaqcıl texnologiyalar və yüksək keyfiyyətli son məhsullar təklif edərək əməkdaşlığa hazırdırlar. Biz ikitərəfli əməkdaşlığın bütün potensialını reallaşdırmaq üçün dəstək göstərəcəyik", - deyə İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli bildirib.

İtaliya tərəfi mədəni-humanitar əməkdaşlığın inkişaf perspektivlərinə xüsusi diqqət yetirib. Hər iki dövlət başçıları təhsil sahəsində əməkdaşlığı müzakirə ediblər. Gələn il birgə təhsil forumunun keçirilməsi barədə razılığa gəliblər. Tədbir iki ölkə alimlərinin ən yeni tədris metodları, təhsil sisteminin müasirləşdirilməsi kimi məsələlərlə bağlı fikir və təcrübə mübadiləsi platformasına çevriləcək. Özbəkistan Respublikasının Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun aparıcı elmi işçisi Kamilə Sabirovanın sözlərinə görə, son illər Özbəkistanda təhsil sektoru yüksək templə inkişaf edir və ona diqqət artırılır. Qlobal Təhsil Xərcləri 2022 reytinqinə görə Özbəkistan təhsil xərclərinə görə ilk iyirmi ölkə sırasındadır.

Məsələn, Daşkənddəki Turin Politexnik Universiteti 2009-cu ildən bəri Özbəkistanda mühəndislik təhsili və italyan texnologiyalarının yayılmasında liderdir. Sergio Mattarella universitetdə olub və burada çıxışında qeyd edib ki, "Turin Politecnico ilə uzunmüddətli əməkdaşlıq on ildən artıq işin nəticəsidir və hər iki ölkə üçün konkret yoldur". Bu universitetin bazasında gələn il Qabaqcıl İtaliya Texnologiyalarının Transferi Mərkəzi fəaliyyətə başlayacaq.

Dövlət başçıları Özbəkistanda italyan dilinin öyrənilməsinə marağın artdığını da qeyd ediblər. Bununla bağlı müəllimlərin hazırlanması və məktəblərdə italyan dilinin tədrisinin mərhələli şəkildə tətbiqi barədə qərar qəbul edilib. Kamilə Sabirovanın sözlərinə görə, İtaliyanın təhsil sahəsində göstərdiyi yardım, ilk növbədə, sürətlə dəyişən dünyanın tələblərinə cavab verən daha keyfiyyətli, müasir biliklər əldə etməyə imkan verəcək. İkincisi, öyrənilən sahələr üzrə bilik, ideya və qabaqcıl təcrübə mübadiləsi aparmaq, üçüncüsü, kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi. Nəticə etibarı ilə tələbələr daha səmərəli və effektiv şəkildə təlim keçəcək və bu, şübhəsiz ki, Özbəkistanın iqtisadiyyatına töhfə verəcək.

Beləliklə, Avropa müəyyən bəhanə və üsullarla Asiya bazarlarına can atır. Fransa, Almaniya, bu gün isə İtaliyanın timsalında səfərlər intensivləşib. Bu səfərlərin mahiyyətini özbəklər də daxil, asiyalılar bilməmiş deyillər. Avropalıların nə qədər yırtıcı olduqlarını hər kəs bilir. Ona görə də onların hər hansı dostluq təklifini "min ölçüb, bir biçmək" lazımdır ki, sonra peşmançılıq olmasın.

**V.VƏLİYEV**

# Yüksək diqqət və qayğının nümunəsi

## PREZİDENT İLHAM ƏLİYEV: "Şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq"

Bu gün Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Ümumilikdə, mütərəqqi sosial siyasət həyata keçirən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Xüsusilə, bu gün müstəqil Azərbaycan, dövlət başçısı İlham Əliyev İkinci Vətən Müharibəsi nəticəsində qaçqın və məcburi köçkünlərə, müharibədə şəhid və fiziki sağlamlığını itirən şəxslərin ailələrinə xüsusi diqqət ayırır.Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Dövlətimizin başçısı onu da vurğulayıb ki, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Ali Baş Komandan, Prezident İlham Əliyev hərbi parada çıxışında onu da bir daha vurğuladı ki, çıxışında bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik.

### ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL TƏMİNATI DA YAXŞILAŞIR. BİZ DAİM ONLARI DİQQƏT MƏRKƏZİNDƏ SAXLAYACAĞIQ

Bu gün torpaqları işğal olunmuş bir ölkənin ərazi bütövlüyünü qoruyanlar və haqq savaşını verənlər hərbçilər, qazilər və şəhid ailələri Azərbaycan dövlətinin hər zaman xüsusi diqqət və qayğısı altındadır. Xüsusilə də, Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır."Şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq",- deyə qeyd edən Prezident İlham Əliyevin imzaladığı sənədlər nəticəsində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial ödənişləri təkcə son 4 ildə 2 dəfədən çox artırılıb. Eyni zamanda, bu dövrdə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Postmüharibə dövründə onlara 4300, ümumilikdə ötən dövrdə 13,1 min mənzil və fərdi ev təqdim edilib. 2022-ci il üzrə də 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, artıq 1300-ü təqdim edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin rifahına yönələn proqramlardan biri də onların avtomobillə təminatıdır. Postmüharibə dövründə bu istiqamətdə də tədbirlər geniş miqyas alıb, eyni zamanda, 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. 44 günlük Vətən müharibəsindən sonra 304, ümumən ötən dövrdə 7500-dən artıq avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib. Zəfər Günü ərəfəsində Prezident İlham Əliyevin Azərbaycan Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması ilə bağlı imzaladığı Fərmana əsasən həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməli, Müdafiə Nazirliyi və Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görməlidirlər. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.



Prezidentin digər fərmanları ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının, Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları da orta hesabla 20 faiz artırılıb. Fərmanlar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

Vətən müharibəsindən sonra ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və torpaqlarımızın işğaldan azad olunması istiqamətində aparılan hərbi əməliyyatlar zamanı yaralanmış şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasını təmin etmək məqsədilə yaradılan vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 98 min 600 şəxsə müxtəlif xidmətlər göstərilib. Müharibə ilə əlaqədar əzalarını itirən və əlilliyi olan şəxslərin yüksək texnologiyalı son nəsil protezlər və reabilitasiya vasitələri ilə təminatı işləri də həyata keçirilib. Ümumilikdə, 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək proqramı çərçivəsində müharibə ilə əlaqədar əlilliyi olan 448 şəxs 467 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib, 2 min 35 şəxsə 46 min reabilitasiya vasitəsi verilib. Ümumilikdə, postmüharibə dövründə şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 52 min 400 sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.Qəhrəman Vətən övladlarının yadigarlarının və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin fərdi bacarıqlarının inkişaf etdirilməsi, həmin şəxslərin dünyagörüşünü, motivasiyasını artırmaq, yeni yaradıcılıq uğurlarını stimullaşdırmaq, sosial reabilitasiyasına dəstək olmaq məqsədilə mütəmadi olaraq tədbirlər və layihələr həyata keçirilir.Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə yaradılan DOST konsepsiyası çərçivəsində yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi Azərbaycanda müharibə ilə əlaqədar əlil olanların və şəhid ailələrinin üzvlərinin cəmiyyətə inteqrasiya imkanlarının artırılması sahəsində aparılan fəal dövlət siyasətinin növbəti əyani təcəssümünü ifadə edir.Uğurlu antiterror əməliyyatlarından sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Xankəndi şəhərində həssas əhali qruplarından olan şəxslər üçün 30 nəfərlik sığınacaq yaradılıb, burada yerləşdirilmiş sakinlərə psixoloq və sosial işçilər tərəfindən sosial xidmətlərin göstərilməsinə başlanılıb.

### "AZƏRBAYCAN BU SAHƏDƏ DƏ DÜNYA MİQYASINDA ƏN QABAQCIL YERLƏRDƏDİR"

Prezident çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir: "Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib.

Çünki Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir. Təsadüfi deyil ki, hər il ölkənin büdcəsi təsdiq olunarkən əhalinin sosial rifahının artırılması diqqət mərkəzində olur. Büdcədən sosial sahəyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. İstər pandemiya şəraiti səbəbindən, istərsə də İkinci Vətən Müharibəsi dövründən dövlətin gəlirləri müəyyən qədər azalsa belə, cari ildə də sosial sahəyə ayrılan vəsaitin həcmi çoxalıb. Həyata keçirilən sosial siyasət həm də geniş əhatəli olmaqla, ölkənin sosial dəstəyə ehtiyacı olanların hamısının mənafeyi nəzərə alınıb. Azərbaycanda tələbələrdən tutmuş İkinci Dünya müharibəsinin veteranlarına kimi hamıya sosial qayğı göstərilir. Xüsusilə, Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı 2023-cü ilin yanvar ayının 25-də imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı deyilənlərin bariz nümunəsidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq.Bəli, sözü ilə əməlləri üst-üstə düşən Azərbaycan Prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

### QAZİ VƏ ŞƏHİD AİLƏSİ ADINDAN SUİ-İSTİFADƏ HALLARINA NİFRƏTLƏ YANAŞIRLAR

Əlbəttə ki, Azərbaycan xalqı tükü-tükdən seçən həssas xalqdır və açıq fikirli və hər kəsi öz simasında tanımağı bacarır. Əl-ayağını itirən, dünyaya baxan gözünü itirən, psixoloji travmalar alan vətən oğullarımız heç zaman bu cür hay-küyə qoşulmaz və dövlətin mənafeyin hər şeydən üstün tuturlar. Üzdəniraq insanların addımlarına sosial şəbəkələrdə təsadüf etdikdə, təəssüflənirik ki, Vətənə can fəda edən oğullarımızın adına kölgə salmaq niyyətində olan insanlar kimlərinsə sifarişlərini yerinə yetirirlər. Belə dələduzlar hətta məscidlərin, ziyarətgahların ətrafında sui-istifadə halların yol verirlər. Xüsusilə də, bəzən mübahisələr olur ki, mənə dəbdəbəli ev tikdirməlisən və ya qəbirüstü abidə bahalı olmalı, başqalarınkından seçilməlidir. Bu, cəmiyyətdə qıcıq doğurur. Şəhidlər Vətən uğrunda canlarını fəda ediblərsə, onların adına verilmiş küçə adları da dəb xatirinə bir-birindən yüksək olmamalıdır. Çünki dövlət belə şəxslərə daim böyük diqqətlə yanaşır. Həmin kateqoriyadan olanların həyatının normallaşdırılması qəbul olunan bir sıra qərarlar, fərman və sərəncamlar deyilənlərin göstəricisidir. Dövlət həmin kateqoriyalı insanlara qayğı ilə yanaşır. Və bu gün qazilər çirkin məqsədlərini həyata keçirmək üçün istifadə edənlərə qarşı bir olmalıdırlar, imkan verməməlidirlər ki, həmin çirkin qüvvələr onların qazi adına ləkə vursunlar.

Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə demokratik, şəffaf islahatlar siyasətini dönmədən həyata keçirməkdədir. Həmin siyasətin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, veteranlar bizim qızıl fondumuzdur: "Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur."

Bir sözlə, bütün bunlar onu göstərir ki, şəhid ailələrinə və qazilərə qayğı göstərmək dövlətin prioritet vəzifəsidir və Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq. Dövlət başçımız bunu son 20 illik Prezidentlik fəaliyyəti müddətində aydın şəkildə göstərib: "Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam",- deyən Azərbaycan Prezidenti, hər kəsin, o cümlədən şəhid ailələrinə diqqət və qayğının ən bariz nümunəsini son 20 ildə göstərib və bundan sonra da göstərəcəyinə Azərbaycan xalqı inanır və şahidlik edir. Çünki bu sadalananlar bir daha onu göstərir ki, Azərbaycan dövləti bütün kateqoriyalardan olan vətəndaşlarına daim qayğı və həssaslıqla yanaşır və onların sosial rifahının yüksək olması istiqamətində mühüm işlər reallaşdırır.

Yuxarıda qeyd edilənlər bir daha onu deməyə əsas verir ki, Azərbaycan dövləti üçün İkinci Qarabağ müharibəsinə qədər olduğu kimi, indi də əsas prioritet vətəndaşlara, ələlxüsus şəhid ailələrinə və qazilərə dövlət qayğısının göstərilməsidir və bunu da edir. Və bu ölkədə görülən bütün işlər isə yalnız vətəndaşlarımızın və dövlətimizin ali mənafeyinə xidmət edir. Ancaq bu addan sui-istifadə halları isə şəhidin adına, ruhuna hörmətsizlik etməklə, bu böyük ada ləkə yaxanlar bilməlidirlər ki, Vətənə sevgi təmənnalı olmur.

**RƏFİQƏ HÜSEYNOVA**

KÜNCDƏN BAXIŞ

# Elimizi istismar edən "Oba"mız

I YAZI

Son vaxtlar mağazalarda işləyən işçilərin istismarı ilə bağlı mediada və sosial şəbəkələrdə saysız hesabsız faktlar, şikayətlər, tələblər işıqlandırılsa da, bu problemə son qoyulmur. Nə mağaza sahibləri, nə də aidiyyatı orqanlar bununla bağlı hər hansı bir ciddi tədbirlər görmürlər. Həm kiçik məhəllə dükanlarında, həm mağazalar şəbəkələrində işçilər əmək hüquqlarının kobud pozulması şəraitində ən aşağı maaş müqabilində istismar olunur. Bir çoxunda işçilər sutkada 10-12-14 saat işlədilir, üstəlik bir neçə iş bir nəfərə yüklənir. İşçi həm kassaya baxır, həm satıcıdır, həm fəhlədir, həm xidmətçi...




Belə əmək istismarı ilə fəal məşğul olan mağazalar şəbəkələrindən biri də "Oba Market"dir. Ucuz və keyfiyyətsiz məhsullar üzrə ixtisaslaşmış bu mağazalar şəbəkəsi ən çox şikayət olunan müəssisələrdəndir. "Oba" mağazalarında işçi tapmaq probleme çevrilir. Bəzən kassaya xidmətçi baxır, şöbələrdə nəsə soruşmağa işçi yoxdur, kassada işləyən həm fəhləlik edib malları anbara və ya rəflərə daşıyır, həm döşəməni silir, həm qaçıb tərəzidə meyvə-tərəvəz çəkir, kassanın qarşısında gözləyən adamlar şikayətləndə isə yüyürüb kassanı işlədir. Bütün bunların müqabilində isə əməkhaqqı nə qədər olsa yaxşıdır? Minimum əməkhaqqı qədər- 350-400 manat.

"Oba"nın işçiləri tualetə belə getməyə imkan tapa bilmir, azı 10 saat ayaqüstə dayanmağa məcbur olur, bir çox hallarda nahar belə edə bilmir, çünki dükanda təkdir. Hər hansı oğurluq və digər zərər olduqda isə bu işçilərin qəpik-quruş maaşından tutulur."Oba Market" şəbəkəsi iş tapa bilməyən gənclər kütləsindən necə lazımdı bəhrələnir. İşə dəvət olunanları müxtəlif bəzəkli vədlərlə aldadır ki, bəs burada karyera quracaqsınız, gələcəkdə daha üstün işlərdə işləyə bilərsiniz. Ona görə də bu mağazalarda ancaq başqa yerdə iş tapa bilməyən əlacsız gənclər işləyir. Onlar qeyri-insani iş şəraitində həm sağlamlıqlarını itirir, həm də sosial həyatdan təcrid olunurlar. Bütün bunların müqabilində şirkət xeyli gəlir əldə edir."Oba market"də tez-tez saxta, keyfiyyətsiz, vaxtı keçmiş qida məhsulları aşkar olunsa da, şirkət rəhbərliyi hər dəfə bir bəhanə ilə vəziyyətdən çıxmağa çalışır, materialları mediadan sildirir, lakin vəziyyəti düzəltmək haqda heç fikirləşmir də. Alıcılar isə işçilərlə dalaşır, onları təhqir edirlər. Şirkət rəhbərliyi həmişə sudan quru çıxır.

Şirkətlə bağlı qanunsuzluqları ifşa edəndə gətirdikləri arqumentlərdən biri də budur ki, bəs biz neçə min adamı işlə təmin etmişik. Cənablar, bağışlayacaqsınız, bu işlə təmin etmək deyil ey, bu insanları qul kimi işlədib istismar etməklə xeyli gəlir əldə etməkdir. Hər şeyi öz adı ilə çağıracaqsınız.

Bu yazıda diqqət çəkmək istədiyimiz sırf əmək hüquqlarının pozulması məsələsidir. Bu mağazalarda satılan keyfiyyətsiz, vaxtı keçmiş məhsullarla bağlı ayrıca yazımız olacaq.

Qeyd edək ki, "Oba Market" şəbəkəsi "Veysəloğlu" şirkətlər qrupuna daxildir. Şirkətin digər mağazalarında da belə hallar var, lakin ən pis vəziyyət məhz "Oba" mağazalarında olduğu üçünbu yazıda ondan danışmağa çalışdıq.

Bəli, biznesin vicdanı olmur, burada ən ali dəyər puldur, qazancdır, bunu başa düşürük, ona görə də belə şirkətlərdən heç vicdanlı yanaşma da gözləmirik. Gözlədiyimiz vətəndaşların əmək hüquqlarını təmin etməli olan aidiyyatı orqanlardandır. Hansılardan? Məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətindən, Həmkarlar təşkilatından. Hörmətli məsul şəxslər! Məgər siz fasiləsiz olaraq media və sosial şəbəkələrdə ictimailəşdirilən faktları, şikayətləri, tələbləri görmürsünüz? Əlbəttə görürsünüz! Bəs niyə tədbir görmürsünüz? Öz işinizi yerinə yetirmirsinizsə, onda niyə dövlətdən maaş alırsınız? Komfort kabinetlərdə oturub bahalı kofe içməklə deyil ey. Çıxın sahələrə, baxın vəziyyətə, qanunların tələblərini yerinə yetirilməsini təmin edin, qanunları pozanları cəzalandırın. Əgər bunları edə bilmirsinizsə, onda zəhmət olmasa istefa verin, gedin başqa işlə məşğul olun.

O ki qaldı Qida Təhlükəsizliyi Agentliyinin mağazalarda satılan saxta və keyfiyyətsiz məhsullarla bağlı ciddi tədbirlər görməməsinə, bu barədə növbəti yazımızda.

*Elçin Bayramlı*



FELYETON

## Geridə qalmaq istəyirəm...

**Deyəndə ki, çoxlarımız geridə qalmışıq, məni qınayırlar ki, sən özün geridə qaldığın üçün müasirliyi görə bilmirsən. Dedim axı necə edim ki, özümə bir çəki-düzən verim, mən də müasirləşim, öndə olanların cərgəsinə qoşulum. Fikirləşdim ki, gözlərimi dörd açmalıyam bundan sonra. Gör-götür dünyasıdır. Baxım, görüm, nə görürəm?..**

Şənbə günü metroda qatara girən kimi gözlərimi dörd açdım ki, bu müasirliklərdən bəlkə bir-ikisini əxz edəm. Baxdım ki, qarşımda bir ana, bir də 5-6 yaşında olan balası əyləşib. Ana özündən razı, müasirliyi ilə ətrafdakılara meydan oxuyan biri idi. Hələ onu da düşündüm ki, görən bunun metroda nə işi var, yoxsa bizim kimi onun da maşını yoxdur, ya da ki, şəhərdəki "probkadan" cana gəlib yerin üstündən imtina edib, altına girib.Nə isə, uzun sözün qısası, bu ana-balanın hər birinin əlində iri bir smartfon var idi. Uşaq səsli-küylü bir oyun oynayırdı. Ana da telefonda elə məşğul idi ki, başını qaldırıb ətrafa nədir, uşağına da aradabir baxmırdı. Birdən uşağın əli nəyəsə toxundu və yeqin ki oyun itdi. Anasını dümsüklədi. Ana da uşağın üzünə belə baxmadı. Çiyinlərindən qırqovul kimi yapışıb, o tərəfindən götürüb bu tərəfinə qoydu. Yox, qoymadı, çırpdı və "əşi, əl çək də",- deyərək elə ucadan bir səs çıxardı ki, hamı çönüb onlara baxdı.Uşaq da qəfil zərbədən elə bil "zıq" elədi və səsini kəsdi. Düzdür, yenə telefonda nəyəsə baxırdı. Amma qorxudan ta anadan heç nə soruşmadı.Ananın da qaş-qabağı yernən gedir. Özü başdan-ayağa ağappaq geyinsə də, deyirsən bəs, Qara dənizdə gəmiləri batıb. Elə bu zaman qatar dayandı. Ana uşağın qolundan yenə qırqovulsayağı dartıb qatarın qapısından bayıra atdı.Dedim bax, bu da mənim əməlim. Saki gözlərimi dörd açmışam, gördüyümə bax. Düzü, gördüyüm mənzərə heç xoş olmadı. Nə deyirsiniz, mən də müasir olmaq üçün belə edim? Azyaşlı uşağın əlinə telefon verib müasir ailə modeli yaradım? Verə bilmərəm. Birini də özüm alım əlimə, uşaqdan xəbərim olmasın? Edə bilmərəm. Uşaq bir söz soruşanda onu ora-bura çırpım? Yox, əsla edə bilmərəm. Özüm də başdan-ayağa ağappaq geyinim ki, mən müasirəm, dəblə ayaqlaşıram, hamıdan fərqliyəm? Bunu da edə bilmərəm. Çünki gözümlə gördüm ki, ağ necə də tez ləkə götürür.

Yox, yox ay bacılar, qardaşlar, məni anlayın, başa düşün. Mən çöldəki müasirlikdən yox, içəridəkindən istəyirəm. İçərini də görə bilmədiyim üçün, deməli, mən həmişə geridə qalmış olacağam.

***Mətanət Məmmədova***

# Mətbuat Şurasından bəyanat...

## Fransanın dünya mediasını Azərbaycanla bağlı əks-təbliğata çəkməsi yolverilməzdir



Fransanın Azərbaycanla Ermənistan arasında münasibətlərə dair qərəzli, ermənipərəst mövqeyi Azərbaycan ictimaiyyətində və ölkəmizin jurnalist cameəsində narazılıq və narahatlıq doğurmaqdadır. Bu narazılığın müxtəlif media materiallarında, eləcə də ayrı-ayrı vətəndaşlara məxsus sosial şəbəkə profillərində ifadəsini tapması təbiidir. Təəssüf ki, dünyanın bəzi media orqanları məsələyə xüsusi rəng qatmaqda, cəmiyyətimizin Fransanın birtərəfli və qərəzli mövqeyindən haqlı etirazlarına qeyri-adekvat məzmun qazandırmaqda və mövcud xüsusda Azərbaycan dövlətini hədəfə almaqda, bütövlükdə respublikamız əleyhinə mənfi beynəlxalq rəy formalaşdırmaqdadırlar. Fransanın dezinformasiya ilə mübarizə qrupunun yaydığı son məlumatın Qərb mediasında tirajlanması da bu cür xoşagəlməz niyyətin göstəricisidir.

SİA AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikirlər Mətbuat Şurasının yaydığı etiraz bəyanatda yer alıb.

Bəyanat, həmçinin deyilir: "Qeyd edək ki, "Reuters" agentliyinin xəbərinə görə, sözügedən qrup 2024-cü ildə Parisdə keçirilməsi nəzərdə tutulan Olimpiya Oyunlarının boykot edilməsi istiqamətində fəaliyyət göstərənlər arasında bir azərbaycanlının olduğunu müəyyənləşdirib. Həmin şəxs X sosial şəbəkəsindəki profilində Fransanı qınayaraq bildirib ki, insan hüquqlarının pozulduğu ölkədə Olimpiya Oyunlarının keçirilməsi yolverilməzdir. Hazırda dünyada Fransanın qlobal miqyasda apardığı siyasətdən narazılığın artdığı şəraitində bu təşkilatın qərəzli şəkildə yalnız Azərbaycana köklənməsi anlaşılan deyil və son dərəcə bəsit yanaşmanın göstəricisidir.

Əvvəla hər bir şəxsin sosial şəbəkədə öz fikirlərini sərbəst şəkildə ifadə etmək hüququ var. İkincisi, hazırkı qloballaşma dövründə sosial şəbəkələrdə xalq və millət məsələləri deyil, fərd anlayışı, o cümlədən istifadəçilərin öz düşüncə və baxışlarını yayması aktualdır. Əgər həmin baxışlarda qaydalara zidd cəhətlər varsa, bunun araşdırılması və müvafiq tədbir görülməsi sosial şəbəkələrin müstəsna hüququdur. Üçüncüsü, sıravi bir sosial şəbəkə istifadəçisinin bölüşdüyü fikirlərin dövlətlə, indiki halda Azərbaycan dövləti ilə əlaqələndirilməsinə cəhdin özü belə olduqca qeyri-peşəkar və bəsit yanaşmadır. Belə təqdimat təsdiq edir ki, Fransanın sözügedən təşkilatı da ölkəmiz əleyhinə aparılan qərəzli təbliğatın alətidir.

Onu da bildirməliyik ki, Azərbaycana münasibətdə qərəzli və çirkin kampaniya aparan Fransa mediasının davamlı və ardıcıl xarakter daşıyan yarıtmaz xəttinin təkanverici qüvvəsinin məhz Fransa dövləti olması artıq hamıya aydındır. Ölkənin nüfuzlu media orqanları belə təlimatların Yelisey sarayından aldıqlarını gizlətmirlər. Aydın görünür ki, bu addımlarla Fransa dövləti özünün daxili və xarici siyasətdəki uğursuzluğunu, ölkədə hökm sürən ksenofobiya, antisemitizm kimi meyilləri, rasizmin getdikcə güclənən təzahürlərini, insan hüquqlarının pozulması hallarının artmasını, habelə neokolonialist siyasətinin yaratdığı fəsadları pərdələməyə çalışır. Cənubi Qafqaz coğrafiyasında erməni avantürizmini körükləyən, onu maliyyələşdirən, silahlandıran Fransa fəaliyyətinə qloballıq libası geyindirdiyini zənn edir, əslində isə neokolonializm siyasətini növbəti regiona transfer etməklə orada yeni münaqişə ocaqları yaradır. Bu xüsusda, Azərbaycanın hədəfə alınması, ayrı-ayrı media orqanlarında ölkəmizlə bağlı qərəzli məqamların qabardılması Fransa dövləti adına son dərəcə miskin mənzərə formalaşdırır.

Azərbaycan Mətbuat Şurası belə mənfi təmayülləri qətiyyətlə pisləyir, dünya mediasını Azərbaycan əleyhinə aparılan təbliğat kampaniyasında iştirakdan uzaq durmağa, həssaslıq nümayişinə, ölkəmizlə bağlı dezinformasiya yayımından, dəqiqləşdirilməmiş, təsdiqini tapmamış məsələləri işıqlandırmaqdan çəkinməyə, əsl həqiqətlərə diqqət yetirməyə çağırır".

# Fransa Ermənistanı silahlandırırsa...

*Yaxud, Aİ ritorikasını dəyişirsə*



Fakt budur ki, Fransadan Ermənistana verilən silahlar Azərbaycana qarşı istifadə edilmək üçün nəzərdə tutulub. Belə ki, Ermənistan beynəlxalq müstəvidə Azərbaycana qarşı aqressiv ritorikanı davam etdirir və eləcə də regionda müharibə gərginliyini saxlayan əsas faktor Qərbin bu bölgədə Ermənistan üzərindən yürütdüyü anti-Rusiya siyasətidir.Digər tərəfdən isə Qərb Türkiyənin Cənubi Qafqaz-Mərkəzi Asiya xəttində güclənməsindən narahatdır. Beləliklə, Qərb Ermənistanda güclənməklə, yaxud yerini möhkəmlətməklə Cənubi Qafqazda balans yarada biləcəyini düşünür.

## Ermənistanın silahlandırılması regionda yeni hərbi toqquşmaya yol aça bilər

Lakin hələ də Rusiyanın bölgədəki forpostu rolunu oynayan Ermənistanın Rusiyanı yarı yolda qoyacağı an məsələsidir. Kimsəyə sirr deyil ki, Cənubi Qafqazda ciddi geosiyasi proseslər gedir. Fransa Avropa Birliyini Ermənistana siyasi dəstək verməyə sövq etməklə yanaşı, Ermənistanı silahlandırır. Ermənistanın silahlandırılması regionda yeni hərbi toqquşmaya yol aça bilər. Çünki Ermənistan yeni silahlar aldıqca, revanşizm siyasətini də inkişaf etdirir. Ermənistan beynəlxalq müstəvidə elə bir təəssürat yaratmağa çalışır ki, guya Azərbaycan bu ölkənin cənubunu - Zəngəzuru ələ keçirməyə çalışır. Eyni zamanda, Ermənistanın qondarma iddia və ittihamlarla Azərbaycanı Beynəlxalq Ədalət Məhkəməsinə şikayət etməsi, bu ölkənin sülhdən nə qədər uzaq olduğunu göstərir. Buna görə də Fransadan Ermənistana göndərilən silahlar Azərbaycana qarşı istifadə edilmək üçün verilir.

## Avropa İttifaqı və Fransa Cənubi Qafqazda qüvvələr balansını dəyişməyə çalışır

O cümlədən, Ermənistanın sülhdən yayınmasına görə Fransa və ona dəstək verən Aİ məsuliyyət daşıyır. Belə ki, Avropa İttifaqı və Fransa Cənubi Qafqazda qüvvələr balansını dəyişməyə çalışır. Gürcüstanın da Ermənistanın silahlandırılmasına tranzit ölkəyə çevrilməsi Qərbin regionla bağlı təhlükəli siyasətin tərkib hissəsidir. Daha dəqiq desək, Gürcüstanın Aİ-yə tam hüquqlu üzv olması üçün rəsmi Tiflisə şərtlər irəli sürülüb. Ermənistana göndərilən hərbi texnikanın Batum limanı üzərindən göndərilməsi də bunun tərkib hissəsidir.

## Söz Bakı və Ankaradadır

Artıq bütün bunlardan sonra gözlənilən addımlar təxminən bu cür ola bilər:

1.Azərbaycan və Türkiyə birgə hərbi bazalar yarada bilərlər. Çünki Fransa və Ermənistanın digər havadarları bölgədə Azərbaycana qarşı yeni oyunlar hazırlayırlar.

2.Avropa İttifaqının Ermənistandakı müşahidəçilərinin sayını artırmaq istəyi Aİ-nin ritorikasının dəyişəcəyinə işarədir.

Və belə olduqdan sonra rəsmi Bakının Ankara ilə birgə hazırlıq səviyyəsinə gələcəkləri, yaxud gəldikləri artıq heç bir şübhə doğurmur. Beləliklə, söz Bakı və Ankaradadır.

***Afət Tahirqızı***

---

# Reallıqlarımızın təqdimatı

Toplantıdakı çıxışlar və tədbir çərçivəsində Prezident İlham Əliyevin keçirdiyi ikitərəfli görüşlər Azərbaycana verilən önəmə və dəyərə bir daha işıq saldı

**"Xarici siyasətində ayrı-ayrı dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu sahələrdə qazandığı uğurlar davamlılığı ilə diqqətdədir. Ölkəmiz bu və ya digər sahələrlə bağlı beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir, yaxud digər ölkələrdə keçirilən belə tədbirlərə qatılır. Bütün hallarda bu, ölkəmizin beynəlxalq münasibətlər sistemində artan rolunun və nüfuzunun göstəricisidir.**

Noyabrın 9-da Özbəkistanın paytaxtı Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısı keçirildi.Toplantıdakı çıxışında "Yaşıl keçid və qarşılıqlı əlaqələr" ilində Azərbaycanın sədrliyi çərçivəsində reallaşan tədbirlərin və təşəbbüslərin tərəfdaşlığımızın genişlənməsinə böyük töhfə verdiyini vurğulayan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Bakıda Təmiz Enerji Mərkəzinin və Regional Elektrik Bazarının təşkili istiqamətində əməli tədbirlər həyata keçirildiyini, həmçinin ekologiya sahəsində də yüksək səviyyəli dialoq platforması yaradıldığını xüsusi vurğuladı. Bildirdi ki, turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq tur-operatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilib. Qeyd edilənlər Azərbaycanla İqtisadi Əməkdaşlıq Təşkilatı, həmçinin quruma üzv olan dövlətlər arasında əlaqələrin yüksələn xətlə inkşaf etdiyini təsdiqləyir. Dövlət başçısı İlham Əliyev Zirvə toplantısındakı çıxışında ötən il Özbəkistana bir dövlət, iki işgüzar səfər etdiyini xatırlatmaqla münasibətlərimizin bugünkü inkişaf səviyyəsinə aydınlıq gətirdi. Eyni zamanda, bu mühüm məqam da diqqətə çatdırıldı ki, Şavkat Mirziyoyev yenidən Prezident seçildikdən sonra ilk dövlət səfərini Azərbaycana etdi. Bu, iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu nümayiş etdirməklə yanaşı, türk dünyasının birliyinin təqdimatı oldu".

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə diqqəti Azərbaycanın iqtisadi uğurlarına, təkmil inkişaf modelinə yönəldərək bildirib ki, ölkəmizin yerləşdiyi coğrafi məkan dövlətlər və xalqlar arasında körpü rolunu oynayır. Dövlət başçısı İlham Əliyevin Zirvə toplantısındakı çıxışı ölkəmizin iqtisadi uğurlarının təqdimatı oldu. Bildirildi ki, Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla dollar həcmində sərmayə qoyub. Bunun sayəsində Avrasiyanın Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. Artıq bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin genişləndirilməsi üzərində işlər gedir.



YAP Xətai rayon təşkilatının sədri bildirib ki, ölkəmizdə sabitliyin və normal biznes mühitinin mövcudluğu Azərbaycana investisiya axının sürətləndirilməsində öz sözünü deyir. Ümummilli Lider Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi dahi rəhbərin uzaqgörən siyasətinin nəticəsi idi. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Bu, Azərbaycana beynəlxalq səviyyədə inamın və etimadın göstəricisidir. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzinin formalaşması ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. 2003-cü ildən etibarən neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycanın bütün çətinliklərdən uğurla çıxmasında əhəmiyyətli rol oynadı. Dövlət başçısı İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirək!" tezisinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımlar bugünkü reallıqlarda özünün aydın ifadəsini tapır. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində respublikamızda güclü iqtisadi potensial formalaşmışdır. Azərbaycanda bu gün geniş və hərtərəfli infrastrukturun qurulması, yüzlərlə müasir müəssisənin fəaliyyətə başlaması da məhz bunun nəticəsidir. Dövlət başçısı İlham Əliyev Zirvə toplantısında bu statistik rəqəmi açıqladı ki, ümumiyyətlə, son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard dollar həcmində sərmayə qoyulub. Bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizdə mövcud olan münbit və əlverişli sərmayə mühitinin nəticəsidir.

Vüqar Rəhimzadə müasir dövrün əsas çağırışı olan bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılmasından bəhs edərək ölkəmizin bu sahədə böyük potensiala malik olduğunu qeyd edib. Vurğulayıb ki, Prezident İlham Əliyev Zirvə toplantısında Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetirildiyini önə çəkib. Dövlət başçısı bu rəqəmləri toplantı iştirakçılarının diqqətinə çatdırıb ki, ölkəmizin bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir. Azərbaycan yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcək. Dünyanın aparıcı yaşıl enerji şirkətləri olan xarici investorlarla imzalanan sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatdırılacaq. İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar tikilərək istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatdırılacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

YAP Xətai rayon təşkilatının sədri onu da əlavə edib ki, istər İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısındakı çıxışlar, istərsə də tədbir çərçivəsində dövlət başçısı İlham Əliyevin keçirdiyi ikitərəfli görüşlər Azərbaycana verilən önəmə və dəyərə bir daha işıq saldı. Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsinin bölgədə davamlı sülhün təmin olunmasında xüsusi rol oynayacağını vurğulayaraq bildirdi ki, Qarabağda 30 ildən artıq davam edən işğalın tamamilə aradan qaldırılması ilə bölgəmizdə davamlı sülhə daha bir addım yaxınlaşdığımızı görürük. Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsi bunu asanlaşdıracaq. Azərbaycanın qərb bölgələri ilə Naxçıvanı birləşdirəcək nəqliyyat xətlərinin ən yaxın dövrdə yaradılması da xüsusi strateji əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş naziri Ənvər-ul-Xak Kakar, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşlərində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması istiqamətində atdığı addımlar təqdir edildi. Regionda dayanıqlı sülhün və təhlükəsizliyin yaradılması fonunda nəqliyyat və logistika sahəsində əlaqələrin daha da dərinləşdirilməsi üçün geniş imkanların yaranacağına əminlik ifadə olundu.

Vüqar Rəhimzadə bu mühüm məqamı da xüsusi qeyd edib ki, hər bir beynəlxalq əhəmiyyətli tədbir Azərbaycan həqiqətlərinin, 30 il davam edən işğal dövrünün reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında növbəti platformaya çevrilir. Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında bir daha diqqəti bu reallığa yönəldib ki, Ermənistan Azərbaycanın 20 faizə yaxın ərazisini təqribən 30 il ərzində işğal altında saxlamışdır. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuş, qaçqın və məcburi köçkünə çevrilmişdir. 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsindən irəli gələn legitim özünümüdafiə hüququndan istifadə edərək Vətən müharibəsində Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində kağız üzərində qalmış dörd qətnamənin icrasını özü təmin etdi. Ərazi bütövlüyümüzü və suverenliyimizi güc yolu ilə, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq bərpa etmişik. Cari ilin sentyabrın 19-20-də keçirilmiş birgünlük lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi.

YAP Xətai rayon təşkilatının sədri bildirib ki, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının işinə böyük əhəmiyyət verir və bu qurumun fəaliyyətinə töhfələrini davam etdirir. Ölkəmiz təşkilatın bir sıra toplantılarına uğurla ev sahibliyi edib. Belə ki, təşkilatın 9-cu və 12-ci Zirvə toplantıları müvafiq olaraq 2006-cı və 2012-ci illərdə Bakıda reallaşıb. Bu il oktyabrın 10-da isə Şuşada İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası keçirilib. Eyni zamanda, Şuşa şəhəri 2026-cı il üçün ECO-nun turizm paytaxtı elan edilib. Dövlət başçısı İlham Əliyev xüsusi vurğulayıb ki, Azərbaycan ECO-nun üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır və təşkilatın növbəti Zirvə görüşünə ev sahibliyi etməyə hazırdır.



# Sülhə inad

## Yaxud, Azərbaycanla Ermənistanın sülhə gedən fərqli yolları…

***Ermənistan sülhü imitasiya edir, bu ölkənin rəsmiləri beynəlxalq güclərin təmsil oldunduğu məkanlarda bu barədə ağızdolusu danışmaqla guya sülhpərvər olduqlarını nümayiş etdirirlər. Əməli işə gəlincə isə vəziyyət kökündən dəyişir, hələ də rəsmi İrəvanı təmsil edənlərin və əksər ermənilərin hələ də revanşist ruhda olduqları bəlli olur. Əslinə qalsa ermənilər nə qədər gücsüz olduqlarının fərqindədirlər, amma dünya erməni cəmiyyətləri, erməni lobbisi və onların maliyyəsi ilə "danışan" bəzi beynəlxalq təşkilat və siyasətçilər Ermənistanı inandırmağa çalışır ki, növbəti müharibədə istədiklərinə nail ola bilərlər. Ermənilər "Ukrayna dərsləri"ndən örnək alıblar, bilirlər ki, Qərb dairələri istənilən vaxt onların arxalarından çəkilib onları tək qoya bilərlər.***

Bu gün Ermənistan Fransaya sığınıbmış kimi görünür. Rusiyanın qucağından düşməmiş Parisin qoynunda özünə isti yuva quracağını düşünür. Ermənistanın baş naziri "kursu" dəyişmək üçün Moskva ilə açıq "savaşa" başlayıb. Məlumdur ki, Paşinyan bunu öz ağlı və ağzı ilə edəcək qədər səriştəli və cəsarətli biri deyil, onu bu yol üstə qoyanlar var. Amma Rusiyanın Cənubi Qafqazdan getmək istəmədiyini və bunun üçün hətta ağır savaşa hazır olduğunu hər addımda İrəvanın qulağına pıçıldaması regionu hansı dəhşətlər gözlədiyini deyə bilərik.

Ermənistan özünü böyük güclərin qlobal oyunlarına alət etməyə həvəslidir. Bundan əvvəl Ermənistan Rusiyanın aləti idi və buna könüllü şəkildə razı olmuşdu. Nəticədə Ermənistanın elə bir vəziyyətə düşdü ki, bundan dərs çıxarması lazımdır. Amma İrəvan bunu etmir. İndi yenə səhv edir, öz işini başqasına tapşırır, problemini başqalarının əli ilə həll etməyə çalışır və nəticədə özünü başqasının aləti olaraq təqdim edir. Təbii ki, Fransanın erməni sevgisi Ermənistanı daha yaxşı etməkdən qaynaqlanmır, daha doğrusu, Parisin İrəvan aşiqliyi fransızların erməniləri sevməsi anlamına gəlməməlidir. Sadəcə, Fransa bu ölkəni öz məqsədlərinə alət edir. Uzaq Fransaya sığınmaq, saxta sevgili obrazı yaratmaqdansa İrəvan Türkiyə və Azərbaycanla səmimi qonşuluq münasibətlərinə başlasa problemləri də həll olunar.Ermənistan və ermənilər anlamalıdır ki, Fransanın çirki oyunlarının arxasında Cənubi Qafqaz bölgəsində soxulmaq və burada möhkəmlənməkdir. Ayaq altında qalan yenə Ermənistan olacaq.

### Paşinyan Parisi partladır - PPP

Ermənistanın baş naziri Nikol Paşinyan Fransada "sülh konfransı" çərçivəsində keçirdiyi bir sıra görüşlər zamanı Azərbaycanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edib. Onun sözlərinə görə, müqavilə 70 faiz razılaşdırılıb. Bakı da sənədin hazırlığını eyni cür qiymətləndirir. Problem ondadır ki, tərəflərin danışıqlar ritmi bir-biri ilə uzlaşmır. Hələ ki, danışıqların əvvəlki intensivliyinə qayıtmaq kimi bir əlamət yoxdur. Görünür ki, ciddi fikir ayrılığı var. Həm də təkcə İrəvanla Bakı arasında deyil, həm də İrəvanla Moskva arasında. Rusiya Federasiyası ilə Ermənistan indi xüsusilə Rusiya sərhədçiləri üzərində mübahisə edir.

İndi çoxları Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması şanslarının nə olduğunu qiymətləndirməyə çalışır. Noyabrın 10-da VI Paris Sülh Forumunda çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, işin 70%-i artıq görülüb. Ermənistan hökumətinin başçısının saytında bildirilir ki, Parisdə Paşinyan Fransa prezidenti Emmanuel Makron və ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Brayenlə danışıqlar aparıb. Hər görüşdə qonşu Azərbaycanla münasibətlərin tənzimlənməsi müzakirə olunub. Nikol Paşinyanın bəyanatı ilk baxışdan



nikbin görünsə də (70% hələ çoxdur), əslində belə deyil. Baş nazir özü qeyd edib ki, sazişin bağlanması Bakının razılığı ilə mümkündür və yaxın aylarda sülh sazişinin imzalanması çox real olacaq.

Nikol Paşinyanın qeyd etdiyi prinsiplər Alma-Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyü (29,8 min kv.km Ermənistan və 86,6 min kv.km Azərbaycan ərazisi), iki ölkənin sərhədlərinin 1991-ci il xəritələrinə əsasən demarkasiyası və delimitasiyasıdır. Eləcə də tərəflərin qarşılıqlı prinsiplərinə əsaslanan kommunikasiyaların açılması da bura aiddir. Bakı isə sənədi yekunlaşdırmağa tələsmir. Baxmayaraq ki, sentyabrda onlar Nikol Paşinyanın Parisdə dediklərini dəqiq bəyan ediblər. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev eyni rəqəm barədə danışıb. Problem ondadır ki, İrəvanla Bakı arasında ilin birinci yarısında intensivliyi ilə diqqət çəkən sülh danışıqları indi, demək olar, dayanıb. Tərəflər arasında sonuncu təmaslar - xarici işlər nazirləri səviyyəsində iyul ayında baş tutub. Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan əvvəlcə Brüsseldə, sonra isə Moskvada görüşüblər. O vaxtdan bəri sülh müqaviləsi üzərində intensiv iş barədə heç nə eşidilmir. Oktyabrın 5-də Nikol Paşinyan Qranadaya Avropa Siyasi Birliyinin sammitinə uçan zaman Azərbaycan lideri İlham Əliyev oraya getməkdən imtina edib. Oktyabrın 13-də Azərbaycan prezidenti MDB-nin Bişkek sammitinə gedəndə Ermənistanın baş naziri bu tədbiri qaçırıb.

Cənubi Qafqazın iki respublikasının baş barışdırıcısı adı uğrunda Rusiya ilə Qərb arasında rəqabət, həm də bu prosesdə rəqabət aparan tərəflərin hər birinin öz maraqlarını güdməsi heç kimə sirr deyil. Moskvanın regionda təsirini qoruyub saxlaması, Brüssel və Vaşinqtonun onu artırması da gözümüzün qarşısında cərəyan edən hadisələrdəndir. Qərbi orada Aİ-nin Ermənistan ərazisində fəaliyyət göstərən monitorinq missiyası təmsil edir. Rusiyanın regionda daha təsiredici varlığı var: Gümrüdəki hərbi baza, Ermənistanın İran və Türkiyə ilə sərhədində xidmət edən sərhədçilər, hələ də Qarabağda yerləşmiş sülhməramlılar.

Baxmayaraq ki, Qarabağ məsələsi Azərbaycan tərəfindən tam olaraq həll olunub. Bundan əlavə, Rusiya Zəngəzur dəhlizi boyunca nəqliyyat kommunikasiyalarının qorunmasına cavabdeh olmaq niyyətini gizlətmir. Moskva Rusiya və Azərbaycan prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanata istinad edir.

### Moskva İrəvana nəyi və necə sübut edir?

Üçtərəfli Bəyanatın 9-cu bəndində deyilir: "Regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılacaq. Ermənistan vətəndaşların, avtonəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək məqsədilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat rabitəsinin təhlükəsizliyinə təminat verir. Nəqliyyat rabitəsinə nəzarəti Rusiya FSB-nin sərhəd xidməti həyata keçirir". İndi məlum olur ki, bu məsələ Moskva ilə İrəvan arasında ciddi mübahisə predmetinə çevrilib. Oktyabrın 26-da Nikol Paşinyan Tbilisidə gələcək kommunikasiyaların fəaliyyəti ilə bağlı "Dünyanın kəsişməsi" layihəsini təqdim edib. O qeyd edib ki, bütün infrastruktur, o cümlədən avtomobil yolları, dəmir yolları, hava yolları, boru kəmərləri, kabellər, elektrik xətləri keçdiyi ölkələrin suverenliyi və yurisdiksiyası altında fəaliyyət göstərir. Paşinyan ayrıca vurğulayıb ki,



hər bir ölkə öz ərazisində öz dövlət qurumları vasitəsilə sərhəd və gömrük nəzarətini həyata keçirir, həmçinin infrastrukturun təhlükəsizliyini, o cümlədən malların, nəqliyyat vasitələrinin və insanların təhlükəsizliyini təmin edir. Nikol Paşinyan Ermənistan ərazisində bütün kommunikasiyaların təhlükəsizliyini təmin edəcək Ermənistan təhlükəsizlik qüvvələrinin xüsusi bölməsinin yaradılmasını da açıqlayıb.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın şərhindən isə belə çıxır ki, Moskva Ermənistan ərazisində sərhədçilərin olması üçün mübarizə aparmaq niyyətindədir. Noyabrın 9-da keçirdiyi brifinqdə o, "Dünyanın kəsişməsi" təşəbbüsünü şərh edərkən deyib: "Üçtərəfli razılaşmalarda Rusiya FTX-nin sərhəd xidmətinin Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə nəzarəti həyata keçirməyə dair bənd var.

Zaxarovaya erməni həmkarı, Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan belə cavab verib: "Ermənistan Respublikası hökuməti bu yaxınlarda "Dünyanın kəsişməsi" layihəsini dərc edib, onun əsas prinsiplərindən çıxış edir. Aydın olur ki, regional kommunikasiyalar açıldığı halda Ermənistan Respublikası öz ərazisində dövlət orqanları vasitəsilə sərhəd və gömrük nəzarətini həyata keçirməlidir. Ermənistan Respublikası heç vaxt heç bir sənəddə öz suverenliyinə hər hansı məhdudiyyətlə razılaşmayıb və onun suveren ərazisinin heç bir hissəsində üçüncü ölkənin nəzarəti yaradıla bilməz".

Mübahisə, şübhəsiz ki, davam edəcək və Ermənistan-Rusiya münasibətlərində toplanmış çoxlu digər münaqişə məsələlərini tamamlayacaq. Yeni münaqişə Bakı və İrəvanın sülh sazişinin hazırlanmasının yekun mərhələsinə daxil olması perspektivləri ilə birbaşa bağlıdır. Və bu, şübhəsiz ki, belə bir müqavilənin imzalanma anını heç də yaxınlaşdırmır. Ermənistan-Azərbaycan danışıqlarındakı pauza da bunu göstərir: nə Qərb, nə də Rusiya görüşü təşkil edə bilməz. Qərb vasitəçilərinin bütün cəhdləri heç bir nəticə vermir. Liderlərin görüşünü keçirmək cəhdləri uğursuzluqla nəticələnir. Bakının vasitəçilərlə bağlı şikayətləri var və Azərbaycan daha çox ikitərəfli formata üstünlük verir. İrəvanda isə düşünürlər ki, əgər görüş yekunda Avropa platformasında baş tutmasa, bu, Ermənistan üçün pis xəbər olacaq. Çünki bu, Ermənistanın maraqlarına uyğun olmaya bilər.

Bakı üçün əsas odur ki, rabitə təhlükəsizliyi təmin olunsun və bunu hələlik Rusiya sərhədçiləri təmin edə bilər. Ermənistan isə öz ərazisində təhlükəsizliyi təmin etmək istəyir. İrəvanda Rusiyanın iştirakının sabitliyin qorunmasına kömək edəcəyi hissi yoxdur. İndi daha çox sual budur: Tezliklə sülh müqaviləsi imzalana bilərmi? Hər iki lider buna hazır olduqlarını bildiriblər. Məsələ isə hələlik ortaq variantın olmamasıdır. Kommunikasiyaların qorunması ilə bağlı mübahisə yeni fikir ayrılığı mövzusudur. Burada Bakı və Moskvanın mövqeləri üst-üstə düşür, eyni zamanda, Ermənistan özündə olmayan şeylər üçün bazarlıq etmək istəyir, halbuki, yolun keçməli olduğu ərazi üzərində heç bir suverenliyi yoxdur. Orada Rusiya sərhəd qoşunları yerləşdirilib. Deməli, bu mövzu daha çox Moskva ilə İrəvan arasında olan məsələdir.

### Rusiya və Ermənistanın pozulmuş münasibətləri

Azərbaycan üzrə rusiyalı ekspert Aleksandr Budberq hesab edir ki, kommunikasiya məsələsi yeni eskalasiyaya səbəb olmayacaq. "Mən müharibə ehtimalını aşağı qiymətləndirirəm, hesab edirəm ki, Ermənistanın müharibə etmək imkanı, Bakının isə arzusu yoxdur. Azərbaycan Zəngəzuru heç bir sanksiyaya dəyişmək istəmir. Amma vəziyyət statik olaraq qalmır və onun necə inkişaf edəcəyini görməliyik. Əgər hansısa beynəlxalq qüvvələrin tətbiqi ilə bağlı çağırışlar olsa, bu, hamını qıcıqlandıracaq. Mən əmin deyiləm ki, İran orada bəzi, məsələn, Fransa sülhməramlılarını görməkdən məmnun olacaq", Budberq bildirib.

Beləliklə, Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olması və müvafiq olaraq bütün tərəflərin həyat səviyyəsinin yaxşılaşdırılması imkanı var. Ermənistanın mövqeyi hadisələri müxtəlif istiqamətlərə apara bilər. Qərar verməliyik, uzunmüddətli sülh, yoxsa sonu görünməyən qarşıdurma?

**V.VƏLİYEV**

# Doqquzu estetik olan gözəllik

**Belə bir deyim var: gözəllik ondur, doqquzu dondur. Bəzən bu deyim elə başa düşülür ki, gözəl, dəbdəbəli geyimlər gözəlliyi ortaya çıxarır. Bu, yanlış anlaşmadır. Bu deyim ona görə belə söylənib ki, yəni geyim o qədər yerində, sadə, insana yaraşan olmalıdır ki, bir gözəlliyə doqquz gözəllik də əlavə edib onu ona çatdıra bilsin. Təəssüf ki, hazırda həmin deyim artıq öz effektini itirib, onu heç dilə gətirən də yoxdur. Çünki indi geyimlər bəziləri üçün elə bir vəziyyətdədir ki, olanqalan gözəlliyi də alıb aparır, nəinki hələ ona doqquzunu da əlavə edir.**

Bugünkü təfəkkürə görə gözəllik, bəli, on olaraq qalır, lakin bunun doqquzu estetik əməliyyatlardır. O əməliyyatlar ki, bəlkə də dəfələrlə bunun üçün müraciət edənlərə görə gözəllikdir, lakin əslində elə bir eybəcərlikdir ki, onu nə gözəl geyimlər xilas edə bilir, nə də kosmetik vasitələr...



## Biz nə üçün özümüz olmaq istəmirik?..

Mütəxəssislərin dediyinə görə, 2000-ci illərdən bəri gözəllik anlayışında dəyişiklik baş verib. Belə ki, 90-cı illərin incə modelləri dolğun bədənlərlə əvəz olunmağa başlanıb. Daha sonra isə Cennifer Lopezlə başla-



yıb Kim Kardaşyanla zirvəyə çatan iri döşlər, nazik bel və böyük ombalardan ibarət dəb meydana gəlib.

Biz nə edirik? 90-larda da, 2000-lərdə də, hal-hazırda da özümüzə deyil, müğənnilərə, artistlərə-trend modellərə oxşamağa çalışırıq. Həm geyimimizlə, həm saç düzümümüzlə, həm də bədən quruluşuna görə. Təəssüf ki, bu, hazırda evdar xanımların belə öz üzərində tətbiq etdiyi dəyişikliklərdir.

Bəs biz nə üçün özümüzə deyil, başqalarına, həm də müğənni, artist, modellərə oxşamalıyıq? Özümüzü nə üçün estetik əməliyyatların qurbanı etməli, həm də bəzi hallarda, necə deyərlər, insan cildindən çıxarmalıyıq? Dünyada kim nə edəcəksə, biz də onu etməliyikmi?

Axı bütün bunlar həm də tibbi cəhətdən sağlamlığı üçün zərərlidir. Bu barədə düşünürükmü? Yoxsa dəbli görünmək üçün sağlamlığı da qurban veririk. Bəli, qurban veririk. Estetik əməliyyatlar zamanı yüzlərlə insan həyatını itirir, yüzlərlə insan uğursuz əməliyyatlardan əziyyət çəkir, yüzlərlə insan istədiyi nəticəni almadığı üçün psixoloji sarsıntılarla üz-üzə qalır, aylarla bayıra çıxa bilmir.

Lakin dünyanın bir çox ölkəsi ildən-ilə estetik əməliyyatlara daha çox meyl edir. Beynəlxalq Estetik Plastik Cərrahiyyə Cəmiyyətinin hesabatına əsasən 2020-ci ildə dünyada 10 milyondan çox insan cərrahiyyə əməliyyatına, təxminən 14,5 milyon insan isə qeyri-cərrahi estetik prosedurlara müraciət edib. Burada rəqəmlərin daha çox olması ehtimal olunur və buna pandemiyanın səbəb olması göstərilir.

Dünyada estetik prosedurlara üstünlük verənlər yaş qruplarına gəlincə, yaş aralıqları fərqli olsa da, estetik prosedurların ən çox tətbiq edildiyi dövrlər olaraq 19-34 və 35-50 yaşlar önə çıxır. Buna görə 19-34 yaş qrupunda edilən əməliyyatlar arasında ən yüksək nisbət yüzdə 67 ilə burun əməliyyatıdır. 35-50 yaş qrupunda botoks yüzdə 50 ilə birinci gəlir.

Beynəlxalq Estetik Plastik Cərrahiyyə Cəmiyyəti ölkələr üzrə estetik əməliyyatların növləri üzrə də hesablama aparıb və bu nəticəyə gəlib ki, döş böyütmədə ilk üçlükdə ABŞ, Braziliya, Almaniya, göz qapağı əməliyyatında ilk üçlükdə Yaponiya, Braziliya, Rusiya, qarın gərmə əməliyyatında ilk üçlükdə ABŞ, Braziliya, Meksika, liposaksiyada ilk üçlükdə ABŞ, Braziliya, Almaniya, burun cərrahiyyəsində ilk üçlükdə Braziliya, Türkiyə, ABŞ, botoksda ilk üçlükdə ABŞ, Almaniya, Türkiyə dayanır.

Təəssüf hissi ilə qeyd edək ki, adları sadalanan ölkələrdən kiçik olmasına baxmayaraq Azərbaycanda da bütün adı sadalanan əməliyyatlar ildən-ilə çoxalır. Və bu əməliyyatlardan gözəlləşənlər kimi, çirkinləşib vahiməli görkəm alanlarla da qarşılaşırıq.

## Sifətlə bir dodaqlar...

Günümüzdə on gözəlliyin doqquzundan biri dodaq dolğusudur ki, buna hazırda yüzlərlə qadın müraciət edir. Dodaq dolğusuna



günümüzün dəbi desək, yanılmarıq. Bu estetik toxunuş üçün qadınların seçimi də təbii ki, eyni olmur. Həm ölçü baxımından, həm də kosmetoloq-həkim baxımından. Bəzi qadınlar dodaqlarının çox həcmli görünməsinə üstünlük verir. Bununla gözəl göründüklərini düşünürlər. Və onlar üçün kosmetoloq-həkim seçimi anlayışı da fərqlidir. Əksər qadın nəinki dodaq dolğusu, üzərində həyata keçirilən bütün estetik əməliyyat və prosedurun ucuz başa gəlməsini axtarır. Və təbii ki, bunun üçün də həkim olmayan, bu sahədən xəbərsiz, şəhərimizdə yüzlərlə sayda olan məhəllə salonlarında bu işi görənlərə müraciət edir. Nəticə isə bu olur ki, prosedurlar çox vaxt uğursuz alınır, dodaqlarda dəhşətli görünüş yaranır. Tez-tez müşahidə etdiyimiz bu hallar bizi narahat etdiyi kimi, görəsən həmin dodaqların sahiblərini də narahat edirmi? Yoxsa, onlar dodaqlarındakı görüntünün əsla fərqində deyillər. Ya da ki, bunu istəyərək belə edirlər...

Bu günlərdə küçədə bir qadınla rastlaşdım. Təsadüfən başımı qaldırıb üzünə baxanda xoflanıb, "Bismillahir rəhmanir rəhim",- dedim. Qadının dodaqları üzünün dörddə iki hissəsini əhatə edirdi. Bir anlığa dü-



şündüm ki, İlahi, yazıq, buna nə olub belə, görəsən? Lakin daha bir nəzər salanda bu dodaqlara dolğu vurulduğunu açıqca anladım. Burada iki variant var: ya qadın "dəbdir",- deyib, özü istəyib dodaqlarını bu günə saldırıb, ya da müraciət etdiyi kosmetoloq - işinin sahibi olmayan kosmetoloq onu bu günə qoyub. Heç inana bilmirəm ki, hansısa bir qadın özünü belə eybəcər vəziyyətə salmağa çalışa. Sadəcə bir qədər dolğu istəyib, lakin düzgün ünvan, düzgün həkim seçmədiyindən bu günə qalıb. Lakin orası da var ki, görünür, bu əməliyyat onu təmin edib ki, küçəyə çıxa bilib. Məsələnin bu tərəfi bir qədər müəmmalıdır...

## Oxşar burunlar, qaşlar, yanaqlar...

Fərqinə varan varsa, açıq görə bilir ki, indi qadınların əksəriyyəti bir-birinə oxşayır. Hansı ki, biz hər birimiz Allah-təala tərəfindən fərqli şəkildə yer üzünə bəxş olunmuşuq. Lakin zamanla Allahın bizə bəxş etdiyi əzaları bəyənmədiyimiz səbəbindən kosmetoloq-həkimlərə müraciət edərək onları dəyişdirməyə çalışırıq. Bir həkimin, bir salon "həkiminin" əl işi onlarla qadının sifətində, bədənində olduğundan təbii ki, onlar bir-birilərinə bənzəyəcək.

Çox tez-tez burunları eyni formada, yanaqları eyni ölçüdə, qaşları oxşar olan qadınlarla rastlaşırıq. Onlar bir-birilərinə bənzəyirlər. Qaşlar necə deyərlər, kamana dartılmış, burunlar nazik şəklə salınmış, ucu qaldırılmış, yanaqlar şişirdilmiş...

Bu yaxınlarda bir qadınla rastlaşdım. Qaşları kənardan çağırırdı ki, mən səriştəsiz bir kosmetoloqun uğursuz işiyəm. Vallah, mən həyatda elə qaş görməmişdim. Rəngi açıq bənövşəyi idi. Quruluşu da, necə deyərlər, qaşlar kamana dartılmışdı, misalı kimi. Bu deyim təbii gözəllərimiz üçün deyilib, düzdür. Gördüyüm bu qaşlar da kamana dartılmışdı, amma ikiqat kamana. Ümumiyyətlə, son vaxtlar bu qaş məsələsi çox dəbdədir. Təsadüfi qadın tapılar ki, öz qaşını daşısın. Əksər qadınlarımız isə saxta qaşlarla özləri üçün gözəllik yaradırlar. Əslində buna gözəllik demək olarsa...

Bu qaşların ya rəngində, ya qalınlığında, uzunluğunda elə bir səhvə yol verilir ki, gözəlləşmək məqsədi ilə gedənlər eybəcər şəklə düşüb qayıdırlar. Lakin onu da vurğulayaq ki, uğurlu qaşlar da var. Kənardan heç də saxtalığı hiss olunmayan qaşlar. Belə olan təqdirdə qaşları nazik, əyri olan qadınlar belə yaxşı ustalara müraciət edə bilərlər, təbii ki. Lakin necə deyərlər, elə bir dövrə gəlib çıxmışıq ki, indi qaşı gözəl olan da, çirkin olan da, hamı Allahın verdiyini silib, yenisini çəkdirir.

## Biabırçı ombalar, vahiməli sinələr...

Haradasa anlamaq olar ki, burun eybəcərdir, adam gedib əməliyyat etdirib, qaşının turu tökülüb, gedib bir az düzəliş etdirib, yaşlaşıb, gedib üzünə dolğu, botoks etdirib. Bəs bu gün estetik əməliyyatlar içərisində ən populyarı olan omba və sinə əməliyyatları necə, bunun vacibliyi nə dərəcədədir? Hansı ehtiyac bu əməliyyatları etməyə vadar edir? O əməliyyat ki, qadından qadınlığı alır. Onu gülünc və biabırçı vəziyyətə salır.

Bu yaxınlarda bir toydan çəkilmiş və sosial şəbəkələrdə yayılan videoya baxırdım. Həmin video toyda omba əməliyyatı keçirmiş bir neçə qadının rəqsindən bəhs edirdi. Yan-yana düzülən bu qadınların paltarlarına "xüsusi bir görünüş" verən ombalarından bir qadın olaraq xəcalət çəkməmək mümkün deyildi. Və bilirəm ki, həmin videoya baxıb mən fikirdə olan yüzlərlə qadın var ki, onlar da həmcinslərinin bu yersiz və lüzumsuz seçimlərindən xəcalət çəkirlər.

Sinə əməliyyatları da omba əməliyyatı kimi qadının qadınlığını, yaraşığını, zərifliyini, incəliyini əlindən alan bir əməliyyatdır. Qadınları eybəcər görkəmə salan, incə belin əhatəsində şişirdilmiş sinə və ombaların kənardan cəlbedici görünüşü məncə onlara qarşı ikrah hissindən başqa nə isə yaratmır.

Dinimiz buyurur ki, qadın elə geyinməlidir ki, bədən orqanları kənardan hiss olunmasın. Biz isə istədiyimiz kimi geyinirik. Di-



ni qaydalara əksər qadın riayət etmir. Hələ üstəlik müasir dövrümüzdə bəzi qadınlar bu əməliyyatları həyata keçirməklə və hələ üstəlik dar paltarlar geyinməklə sinə və ombalarının qabarıq şəkildə görünməsinə çalışırlarsa, buna nə ad vermək olar? Bunun bir adı var: utanmazlıq.

## Mən ki gözəl deyiləm...

Bütün gördüklərimizin fonunda isə deyə bilərik ki, özünüzü bu vəziyyətə salmayın, əziz qadınlar. Pulunuzu sizi gözəlləşdirən deyil, çirkin görkəmə salan "həkimlərə" verməyin. Deməyin ki, kaman qaşlar, ceyran gözlər, böyük ombalar, sinələr, taxma uzun saçlar, nazik, ucu dik burunlar indi dəbdədir, məndə də olmalıdır. Unutmayın ki, ən yaxşı dəb bizə yaraşandır. İnanın, bəlkə də kimlərsə sizin könlünüzün xoş olması üçün, "ay, nə yaman gözəl olmusan",- deyirlər. Lakin inanın, kənardan özünüzə baxsanız "mən ki gözəl deyiləm",- deyərsiniz...

Gözəlliyə, gözəlləşməyə doğru həmişə düşünülmüş və düzgün addım atmağınız diləyilə...

***Mətanət Məmmədova***

ARAŞDIRMA

# Çeşid bol, keyfiyyət yox







***Piylənmə, ürək xəstəlikləri kimi sağlamlıq problemlərinə görə əksəriyyət yağdan imtina edir, lakin yağsız qidalanma da mümkün deyil. Çünki yağ, insanın qidalanmasında əsas əhəmiyyət kəsb edən qidalardandır və orqanizmin ona ehtiyacı var. Yaxşı, bəs nə etməli? Mağazada çeşidbəçeşid, növbənöv olan hansı yağı almalı ki, sonra sağlamlığımızdan olmayaq?***

## Yağ niyə vacibdir?

Yağlar insan orqanizminin aclıq vəziyyətində uzun müddət dözə bilməsini təmin edən enerji ehtiyatlarıdır. Onlar gün ərzində insanın hərəkəti zamanı tələb olunan enerjinin təxminən 80-90%-ni təmin edirlər. Digər tərəfdən, onlar hüceyrə membranlarının əsas komponentləridir və hüceyrə mübadiləmizin əsasını təşkil edirlər.

Yağlar həm kişilərdə, həm də qadınlarda müxtəlif hormonların istehsalı üçün vacib qidadır. Onlar həmçinin yağda həll olunan vitaminlərin (A, D, E, K) daşıyıcısıdır və vitamin D sintezini tənzimləyir. Yağ sinir sistemi üçün vacibdir, çünki sinirləri qoruyan təbəqənin yaranmasına kömək edirlər. Müxtəlif araşdırmalar göstərir ki, yağ çatışmazlığı körpələrdə görmə və sinir sisteminin normal inkişafına zərər verir.

Yağlar, həmçinin, böyrək, dalaq, ürək, qaraciyər və beyin kimi daxili orqanları travmalardan qorumaq və soyuq iqlimlərdə bədən istiliyini saxlamaq üçün həyati əhəmiyyətə malikdir. Bundan əlavə, zülal və su ilə birlikdə dəriyə təbii yumşaqlıq və elastiklik verir. Orqanizmimizə zərərli olan yağlar qida sənayesində tez-tez istifadə edilən hidrogenləşdirilmiş marqarinlər və qablaşdırılmış qidalarda tez-tez qarşılaşdığımız trans yağlardır (doymamış yağlar). Təbii qidalar vasitəsi ilə qəbul etdiyimiz yağlar orqanizm üçün çox faydalıdır.

## Trans yağ restoranlar üçün fürsətdir

Trans yağlar doymamış yağların bir forması kimi tanınır. Onlar həm təbii, həm də süni formada olur. Təbii trans yağları iribuynuzlu mal-qara, qoyun və keçi kimi heyvanların ət və süd məhsullarında olur. Süd məhsullarında yağın 2-6%-ni, mal və quzu ətlərindəki yağın 3-9%-ni trans yağlar təşkil edir. Araşdırmalar nəticəsində belə qənaətə gəlinib ki, bu yağların balanslı qəbulu zərərli deyil. Bununla belə, sənaye üsulu trans yağlar sağlamlıq üçün təhlükəlidir. Lakin sənaye üsulu trans yağlar, yağların otaq temperaturunda bərk qalması üçün emala məruz qalması və tərkibinin dəyişdirilməsi zamanı yaranır ki, bu da təhlükəni ikiqat artırır.

Trans yağ turşuları isə, doymamış yağların sərtləşməsinin və otaq temperaturunda bərk qalmasının qarşısını almaq məqsədi daşıyan hidrogenləşmə adlanan proses zamanı istehsal edilmiş yağlardır. Trans yağ turşuları ürək sağlamlığı üçün təhlükəlidir və xərçəng üçün risk yaradır. Bu növ yağlar, marqarinlər, fast food, hazır şirniyyatlar və qızardılmış qidalarda istifadə edilir.

Trans yağların istifadəsi asan, istehsalı ucuz və uzunömürlü olduğu məlumdur. Trans yağlar qidalara xüsusi dad və tekstura verir. Bir çox restoran və fast-food yerləri qidaları qızartmaq üçün trans yağlardan istifadə edir. Çünki trans yağlar dəfələrlə istifadə oluna bilər, təkrar-təkrar kartof, peraşki, qutab, nagget qızardıldıqda belə yağ yanmır, qaralmır. Bu da müəssisəyə sərf edir, eyni yağı günlərlə istifadə edə bilir. Lakin bəzi ölkələr qida xidməti müəssisələrində trans yağların istifadəsini azaldıb və ya tamamilə məhdudlaşdırıb.

Amerika Ürək Dərnəyi tövsiyə edir ki, qandakı zərərli xolesterolu azaltmaq üçün insanlar trans yağ qəbulunu azaltmalı və doymuş yağ istehlakını ümumi kalorinin 5%-6%-i ilə məhdudlaşdırmalıdırlar.



## Bitki yağları və demans xəstəliyi

Mütəxəssislərin fikrincə, qida rasionumuza bitki yağları əlavə etməklə, demans riskini artırırıq. Araşdırmalara görə, bu növ yağlar digər yağlardan daha çox beyində qan axımını yavaşladır. Ümumiyyətlə, həkimlər bu məsələdə iki cəbhəyə bölünür. Bir qisim həkim kərə yağı və heyvan mənşəli yağların üstün olduğunu və bitki yağlarının zərərli olduğunu deyir, digər qisim isə bitki yağlarının zərərsiz olduğunu. Birinci qisim hesab edir ki, evlərdə bitki yağlarının geniş istifadəsinin səbəbi münasib qiymətinin olmasıdır.

Palma yağı, qarğıdalı yağı, soya yağı, günəbaxan yağı, pambıq yağı və düyü yağı kimi bitki yağlarının istifadəsinin yorğunluq, miqren və hətta demans kimi psixi pozğunluqlara səbəb ola biləcəyini deyən həkimlər bu yağların istifadəsini azaltmağı, alternativ kimi zeytun yağından istifadəni məsləhət görürlər.

## Bəs biz nə yeyək?

Heç kəsə sirr deyil ki, milli xörəklərinin bişirilməsində, əsasən, kərə yağından istifadə edilir. Heyvan yağlarından yalnız kərə yağı (duz vurmadan) az miqdarda istifadə etmək olar- gün ərzində bir çay qaşığı. Ümumiyyətlə, emal olunmuş yağlardan ən xeyirlisi zeytun yağıdır. Zeytun yağının tərkibi minerallar və vitaminlərlə zəngindir. Bu yağ acqarına 1-2 çay qaşığı qəbul edildikdə bir çox xəstəlikləri müalicə edir.

Orqanizm təbii yağları sevir. Təbii yağlar qoz-fındığın, tumların tərkibində kifayət qədərdir. Bunlarda zülal, yağ, karbohidrat, vitaminlər, mikroelementlər və günəş enerjisi cəmləşib. Lakin yağla zəngin olan bu qidaları həddən çox qəbul etmək pis nəticələr verə bilər. Qoz-fındığı, badam-püstəni çiy yeyin.

Zeytun yağı yağlar arasında ən sağlam yağ hesab edilir, qida rasionuna onu daxil etmək daha məntiqli olar. Zeytundan əldə edilən yağın tərkibindəki vitaminlər, minerallar, polifenollar və mikroelementlər mədə mikroflorası və mikrofaunasına faydalıdır, xərçəng və 2-ci tip diabetə qarşı profilaktik təsir göstərdiyi də araşdırmalarla sübut edilib.

***Lalə Mehralı***



ARAŞDIRMA

# Metod, yoxsa şiddət?

***Dil və loqopediya fərdlərin dil və nitq qabiliyyətinə təsir edən bütün pozğunluqlar üçün aparılan işdir. Burada dil və nitqi bir-birindən ayırmaq lazımdır. Çünki kəkələmə, artikulyasiya pozğunluğu və sürətli nitq pozğunluğu kimi problemlər nitqlə bağlı problemlər olduğu halda, afaziya, spesifik dil pozğunluğu və dil gecikməsi kimi problemlər dillə bağlıdır. Nitq və nitq terapiyası prosesinə bütün bu nitq pozğunluqlarına müdaxilələr daxildir.***

Xatırladaq ki, ötən gün seans vaxtı sosial şəbəkələrdə canlı yayıma çıxan loqopedin görüntüsü insanları hiddətləndirib. Belə ki, loqoped Aysel Nəbiyeva adlı profildən canlı yayım açan xanım azyaş-



lı uşaqla kobud rəftar edib. O, uşağa qışqırır, ağladığını gördükdə isə daha da səsini yüksəldir, "ağ elədin", "gördün adamı necə tabe edirlər?!" kimi ifadələr işlədir.

Sosial şəbəkə isifadəçiləri arasında bu cür rəftarın metodika olduğunu deyənlərlə yanaşı, loqopedin azyaşlıya psixoloji şiddət göstərdiyini söyləyənlər də olub. Hətta adı çəkilən xanımı tanıdığını deyən sosial şəbəkə istifadəçilərindən biri onun bu sahə üzrə təhsilinin olmadığını iddia edib. Aysel Nəbiyeva bildirib ki, görüntülər yarımçıq yayılıb: "Bu videonu mənim ailəmlə prinsipi olan xanım pul qarşılığında yayıb. Uşağın ailəsi bu barədə şikayətçi deyil, sadəcə, narahatlıqları videonun yayılmasıdır.

Uşağa qətiyyən şiddət göstərilməyib. Əgər belə bir şey olsaydı, çoxdan haqqımda araşdırma aparılırdı. Atılan şər-böhtandır".

## Bəs, həqiqətən bu müalicə metodudur? Yoxsa açıq-aydın azyaşlıya qarşı şiddətdir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

İlk olaraq qeyd edək ki, ötən ilin



sonuna olan statistik məlumatlara əsasən, görmə qabiliyyəti tam məhdud 720 uşaq qeydiyyatda olub. Bu barədə Dövlət Statistika Komitəsinə istinadən bildirilib. Qeyd edilib ki, ötən ilin sonuna qeydiyyatda olan görmə qabiliyyəti qismən məhdud uşaqların sayı isə 16 800 nəfər olub.

2022-ci ilin sonuna qeydiyyatda olan eşitmə qabiliyyəti tam məhdud uşaqların sayı 1 236, eşitmə qabiliyyəti qismən məhdud olanların sayı isə 2 082 nəfər olub.

Əqli geriliyi olan uşaqların sayı 5 275, nitq pozuntusu olan uşaqların sayı 4 417, poliomielit və serebral iflic qalığı olan uşaqların sayı 3 648, skolioz (onurğa sütunun əyilməsi) xəstəliyi ilə qeydiyyatda olan uşaqların sayı isə 4 812 nəfər olub.



## Uşaqda nitq pozğunluqlarını necə müəyyən etmək olar?

Əgər valideyn övladının dil və nitq qabiliyyətinin yaşıdlarından geri qaldığını düşünürsə, vaxt itirmədən terapevtlə məsləhətləşməkdə fayda var.

## Danışıq terapiyası necə aparılır?

Danışıq terapiyası fərdin şikayətlərinin mənşəyini və əhatə dairəsini müəyyən etmək üçün qiymətləndirmə prosesi ilə başlayır. Daha sonra fərdin və terapevtin bacarıqlarına ən uyğun olan müdaxilə vasitəsi seçilir və tətbiq edilir. Hər növ dil və nitq pozuntuları üçün müxtəlif müdaxilə vasitələri mövcuddur.

## Danışıq terapiyasına neçə yaşdan başlayır?

Danışıq və dil terapiyasına qatılanlar üçün aşağı yaş məhdudiyyəti yoxdur. Danışıq terapevtinin işini davam etdirə biləcəyi hər yaşda olan uşaqlarla təcrübə aparıla bilər. Gənc uşaqlarda terapevtik məqsədlər çox vaxt onları oyuna daxil etməklə hazırlanır.

Dil və nitq pozğunluqlarına nə qədər tez müdaxilə edilsə, bir o qədər yaxşıdır. 2,5 yaşından sonra uşaqların söz ehtiyatı sürətlə inkişaf edir. Buna görə də erkən müdaxilə sayəsində 3 yaşından əvvəl başlayan müalicə ilə uşağın inkişaf problemini dəyişdirmək mümkündür.

## Danışıq terapiyası nə qədər davam edir?

Terapiyanın müddəti pozğunluqdan pozğunluğa və insandan insana çox dəyişir. Tək seansda həll edilə bilən dil və nitq problemləri ola bilsə də, aylarla, hətta illərlə davam edən loqopedik proseslər də var.

İnsanlar çox mürəkkəb və çoxşaxəli varlıq olduğundan, dil və nitq pozğunluqları təəssüf ki, zamanla müxtəlif sosial və psixoloji problemlərə səbəb ola bilir. Bəyənilmək istəyi, mükəmməllik, qrupa aid olmaq istəyi və s. bir çox insan motivasiyası dil və nitq pozğunluqlarının əslində olduğundan daha mürəkkəb problemə çevrilməsinə yol açır. Ona görə də bu problemləri çox gec olmadan həll etmək və ya qəbul etmək uşağın emosional və sosial dünyası üçün böyük əhəmiyyət kəsb edir.

Bənzər problemləri həll etmək üçün əlbəttə ki, müxtəlif üsullar mövcuddur və terapevtin vəzifəsi vəziyyətə ən uyğun olanı seçməkdir. Bunu edərkən təbii ki, elmi araşdırmalarla effektivliyi sübut edilmiş üsullardan istifadə edilməlidir.

## Sürətli texnika nədir?

Sürətli texnika bir çox dil və nitq problemləri üçün istifadə edilə bilən toxunma işarələrinə əsaslanan nitq terapiyası üsuludur. Bu Artikulyasiya pozğunluqlarından qazanılmış dil pozuntularına qədər bir çox sahədə istifadə edilə bilər.

## Artikulyasiya terapiyası nədir?

Tələffüz terapiyası nitq səslərinin səhv istehsalına yönəlmiş tədqiqatlara aiddir. Kiçik uşaqlardan tutmuş böyüklərə qədər müxtəlif yaş qruplarına tətbiq oluna bilər.

## Ev şəraitində loqopedik fəaliyyət tətbiq etmək olarmı?

Bəli, tətbiq olunur. Xüsusilə yerimə qabiliyyətini qismən və ya tamamilə itirmiş xəstələr üçün terapevtlər evdə loqopedik fəaliyyət göstərirlər.

Xatırladaq ki, evdə danışıq terapiyasında terapevtin valideynlərə evdə işləmək üçün verdiyi məşqlərə əməl etməklə də yaxşı irəliləyiş əldə edilə bilər.

## Onlayn danışıq terapiyası faydalıdırmı?

Bu tip terapiya loqopedlərə çıxışı olmayan bölgələrdə davam etdirilə bilər. Hesab edilir ki, bu məsələ seçim yox, zərurətdir.

## Nitq və dil terapiyasının çətinlikləri hansılardır?

Problemi qəbul etmək və həlli istiqamətində birgə hərəkət etmək ailələr üçün ciddi problemdir. Bəzi ailələr uşaqlarında belə problemə dözə bilmir və vəziyyəti inkar edirlər. Bəziləri bunu qəbul edir, lakin həllini yalnız loqopedlərin öhdəsinə buraxaraq öz vəzifələrini yerinə yetirməkdə çətinlik çəkirlər. Bəzi insanlar bu yola başlasalar da qısa müddətdən sonra imtina edirlər.

Prosesi sona qədər səbirlə keçən ailələr istənilən nəticəni əldə edə bilərlər. Uşaqlar üçün bu, məktəbdən və məktəbdə verilən ev tapşırıqlarından çox da fərqlənmir. Ümumilikdə isə ailələrin prosesə cəlb olunması çox vacibdir.

**Loqoped - kəkələmə üzrə mütəxəssis, Dioloji Nitq Psixoligiya Mərkəzinin direktoru Tural Hasani:** "Bəli, görmüşəm o metodu. Öncə qeyd etmək istərdim ki, bizim işlədiyimiz uşaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlardır və bu cür uşaqlarla bəzən xüsusi metodla, yəni yüksək səs tonu, sərt nitqi buyruqlar işlənməlidir.

Biz adi məktəbəqədər uşaqlarla işləmirik. O səbəbdən də asta səs tonu ilə yanaşma etsək effekt əldə etməyəcəyik. Çünki bəzi diaqnozlar var ki, hansı ki, diqqət yayğınlığı, autizm spektor pozğunluğu, əqli



potologiyalarda yüksək səs tonu bilavasitə fikrin pasientə çatdırılması üçün əsas amildir. Lakin əllə sərt təmas, uşağa fiziki şiddət istənilən halda yolverilməzdir.

O xanım loqoped yalnız və yalnız yüksəs səs tonu ilə seans keçsə idi, bunu tam normal qəbul edərdim. Lakin əllə sərt şəkildə təması xanımın lehinə danışmamağa məni vadar edir. Biz müəllimik, pedoqoquq. Pedoqoqun isə əsas metodu səs tonu və sözləri olmalıdır".

**Psixoloq Fərqanə Mehmanqızı:** "Bizim mərkəzdə loqopedlər var. Amma uşaqla belə davranış düzgün deyil. Bəli, uşaqla komandalarla işləmək var. Amma bu zaman uşağın şəxsinə yönələn tənqid, psixoloji təcavüz etmək olmaz. Bu zaman uşaqda travmalar əmələ gələ bilər. Bu da onu analiz etdik-



dən sonra müəyyən olunur.

Qaydalar müxtəlifdir. Amma belə metod yoxdur. Məsələn, "Al", "Ver", "Götür" və "Qoy" deyilməsi normaldır. Amma "Ağ elədin", "gördün adamı necə tabe edirlər?!" kimi ifadələr normal deyil".

Bacısı həssas uşaqlar qrupuna aid olan şəhər sakini Aytac Şahin: "Həssas uşaqlarla işləmək özlüyündə müəyyən səbir tələb edir. Əgər səbirin yoxdursa, bu işi sevmirsənsə, nə üçün həmin peşədə çalışmağa davam edirsən?

Valideynlər "bu mənim müalicə üsulumdur" deyən belə ucuz dırnaqarası loqopedlərə inanmamalıdır. Seansı 20 manatdan aşağı olub, bütün vaxtlarını "Tiktok"-da canlıya sərf edən şəxslərdən effektiv nəticə gözləmək yanlışdır. Xüsusi uşaqları mütəxəssislərə etibar etmək daha uyğun və təhlükəsizdir.

Mənim bacım da həssas uşaqdır. Sudurğası olduğu üçün loqoped yanına qoymamışıq. Bu cür videoları görəndən sonra doğru qərar aldığımızı düşünürəm.

Ancaq işinin peşəkarı olan loqopedlər var. Onların haqqına girmək düzgün deyil".

***Ayşən Vəli***

# "Radikal müxalifət ağa qara deməyə öyrəncəlidir"

"Radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin ağa qara deməsi onların məkrli xislətindən irəli gəlir. Yəni, ölkədə sosial, siyasi sabitlik olanda bunların fəaliyyət dairəsi daralır. Ona görə də, onlar süni sürətdə münaqişə yaratmağa çalışırlar". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Teyyub Qənioğlu deyib.Onun sözlərinə görə, Qarabağda genişmiqyaslı quruculuq abadlıq işləri aparılır və sakinlərimiz də öz doğma yurd-yuvalarına geri qayıdır: "Radikal müxalifət düşərgəsində olan bəzi müxalifət qüvvələrinin Qarabağda aparılan genişmiqyaslı quruculuq abadlıq işlərinə kölgə salmağa çalışmaları onların pozuculuq yolu tutduqlarını göstərir. Təbii ki, iş görülən yerdə mütləq çatışmazlıqlar olacaqdır. Bütün bu proseslərin aparılması üçün zamana ehtiyac var. Xırda qüsurlar olacaq, amma bu xırda qüsurları şişirtmək və öz maraqları üçün istifadə etmək yaxşı bir hal deyil. Təəssüflər olsun ki, müxalifət qüvvələri hər zaman olduğu kimi, bu dəfə Qarabağda aparılan işlərə kölgə salmağa çalışırlar. Bir sözlə, radikal müxalifətin bu cür hərəkətləri heç vaxt onlara başucalığı gətirməyəcəkdir".



MÜNASİBƏT

***Gülyana***

# "Müxalifət nümayəndələrinin fəaliyyəti uğurlu olmayacaq" - POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ

"Bu gün Azərbaycanda hər bir vətəndaş Azərbaycan Prezidentinin sözünə və imzasına hörmətlə yanaşmalı, Prezidentimizin yeritdiyi siyasəti birmənalı şəkildə dəstəkləməlidir. Çünki 30 il işğal altında olan bir ərazini geri qaytarmaq və həmin ərazidə suverenliyi bərpa etmək cənab Prezidentin yeritdiyi siyasət nəticəsindədir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Azad Məsiyev cənab Prezidentin fəaliyyətinə kölgə salmaq istəyən müxalifət nümayəndələri haqqında danışarkən deyib.Onun sözlərinə görə, çox təəssüflər olsun ki, bir sıra müxalifət nümayəndələri Qarabağın işğaldan azad olunmasına çox sadə bir proses kimi baxırlar: "Amma bu çox çətin bir işi idi və biz onu bacardıq. Unutmayaq ki, dünyada güc mərkəzləri söz sahibidir. Bu söz sahibləri ilə maraqları uzlaşdırmaq və manevr etmək hər dövlət başçısına xas olan məsələ deyil.Təəssüflər olsun ki, cənab Prezidentimizin uğurlu fəaliyyətinə kölgə salan qüvvələr var. Bu da hesab edirəm ki, sorosçulardır. Çünki sorosçuların fəaliyyəti ondan ibarətdir ki, Azərbaycanda Rusiya arasında düşmənçilik yaradıb münasibətləri korlasınlar. Bu isə ermənilərin maraqlarına xidmət edir. Ermənilər də istəyir ki, Rusiya ilə Azərbaycan arasında qarşıdurma yaransın, onlar da bunun fonunda bəhrələnsinlər".Azad Məsiyev sözlərinə belə davam edib: "Bu gün həmin sosorçular Azərbaycanı bataqlığa sürükləmək istəyirlər. Onların fəaliyyətini bir Gürcüstanda, Ukraynada və Ermənistanda da görürük. Bu gün bu dövlətlərdə xaos və qarşıdurma yaranıb, vətəndaş müharibəsi ərəfəsindədirlər və ərazilərini itiriblər. Bu cür siyasət Azərbaycanda yolverilməzdir. Bunun da qarşısını alan şəxs cənab Prezidentdir.44 günlük Vətən müharibəsində Azərbaycanda dilindən, dinindən, irqindən və cinsindən asılı olmayaraq vahid birlik yaradan və vahid yumruq altında birləşdirəcək siyasəti həyata keçirən şəxs cənab İlham Əliyev olub. Bunun da nəticəsində 44 günlük müharibədə qələbə əldə etdik.

Ümumilikdə cənab Prezidentin fəaiyyətinə kölgə salmaq istəyənlər birbaşa ermənilərin maraqlarına xidmət etmiş olarlar. Bu gün Azərbaycan regionda söz sahibidir. Azərbaycan Prezidentinin fəaliyəti nəinki regionda, o cümlədən beynəlxalq aləmdə, Avropa auditoriyasında diqqət mərkəzindədir. Müxalifət nümayəndələrinin fəaliyyəti uğurlu olmayacaq. Çünki Azərbaycan xalqı cənab İlham Əliyevin fəaliyyətini birmənalı şəkildə qəbul edərək ona dəstək verir".






***Ayşən Vəli***



# Gəlin, imtina edək!

**MƏTANƏT**

***15 noyabr Beynəlxalq Tütünçəkmədən İmtina Günüdür. 1977-ci ildə Amerikanın Onkoloji Cəmiyyəti tərəfindən təsis edilən bu gün hər il noyabrın üçüncü çərşənbə axşamı qeyd olunur.***

Həmçinin 1988-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Assambleyasının 42-ci sessiyasında 19 saylı qətnamə ilə "31 may - Ümumdünya Tütünsüz Günü" elan edilib. Dünyanın 50-dən artıq ölkəsinin imzaladığı ÜST-nin 21 may 2003-cü il tarixli Tütünlə Mübarizə üzrə Çərçivə Konvensiyasına Azərbaycan 2005-ci il noyabrın 1-də qoşulub. Tütün məmulatlarının istehsalını, satışını və istifadəsini tənzimləyən bəşəriyyətin ilk beynəlxalq razılaşması olan bu Konvensiya ictimai yerlərdə siqaret çəkməyi və tütün məmulatlarının hər hansı formada reklamını qadağan edir.

Tütün çəkənlərin sayının artım dinamikası narahatlıq doğurur. Bununla yanaşı, ictimai yerlərdə siqaret çəkildikdə ətrafdakılar özgəsinin siqaret tüstüsünü udmaqla passiv siqaret çəkməyə məruz qalırlar.

Çox təəssüf ki, siqaret çəkməyənlər siqaret çəkənlərin qurbanı olurlar. Onların tüstüsündə boğulub zəhərlənirlər. Belə ki, Azərbaycanda siqaret çəkməyənlərin 29% evdə, 41% isə qapalı ictimai yerlərdə tütünün təsirinə məruz qalır:

Böyüklər arasında passiv tütünçəkmə göstəriciləri son illər azaldığına baxmayaraq, hələ də yüksək olaraq qalır. Araşdırmalara görə kişilərin 28% iş yerlərində, qadınların 23% evdə tütün tüstünün təsirinə məruz qalır.

Bəzən siqareti tərgitmək istəyən insanlara da rast gəlirik. Onlar elektron siqaretə keçməklə siqareti tərgidəcəklərini zənn edirlər. Lakin mütəxəssis həkimlər deyir ki, elektron siqaretdən istifadə etmək ən azı adi siqaret qədər təhlükəlidir. Siqaretin insan orqanizmi üçün ən təhlükəli tərəfi onun tərkibindəki qətrandır. Həkimlər də ən əsas buna görə insanlara siqaretdən imtina etməni məsləhət görür. Nikotin aludəçiləri isə çıxış yolunu elektron siqaretdə görürlər. Amma yanılırlar, siqaretin tərkibində olanlar demək olar ki, elektron siqaretdə də mövcuddur və bu, insan sağlamlığı üçün birbaşa təhlükədir.

Bu məsələlərin ciddiliyi nəzərə alınaraq ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun da qüvvəyə minib. Qanunu pozanların 30 manatdan 1000 manata qədər cərimə olunması müəyyənləşdirilib. Qanuna əsasən, tütün məmulatlarından (siqaret), sulu qəlyan və elektron siqaretdən istifadə müəyyən yerlərdə qadağan olunub.

Hələ də aramızda bu qanuna zidd gedən insanlar var ki, onlarla hər kəs qarşılaşıb. Beləları haqqında tədbirlərin görülməsi sözsüzdür. Lakin onlar gözdən uzaq yerlərdə məqam düşən kimi ətrafa tüstülərini yaymaqla məşğuldurlar. Çox təəssüf, onlar arasında sürücülər də var ki, bəzən taksidə utanmazcasına səndən "siqaret çəkə bilərəmmi?",- deyə soruşurlar...

Nə qədər ki, hələ də qanundan xəbərsiz insanlar var, onlar cəmiyyət arasında özlərini lazımi səviyyədə apara bilməyəcək və bizlər də passiv siqaret çəkən olaraq qalacağıq.

Lakin hər kəs tək özünü deyil, ailəsini, iş, yol yoldaşını, qonşusunu, qohumunu, dostunu, xüsusilə də övladını düşünməlidir. O zaman papirosunu yandıranda onları da yandırdığını bəlkə dərk edər.

Beləliklə, ən yaxşısı odur ki, gəlin tütündən imtina edək!



# Bayram öncəsi - Gülər Mübariz yazır

1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlandı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etmişdi. Bu, illərdir əsarətin zülmü ilə ayaqlaşan, amma göz yuma bilməyən xalq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdılsa da Azərbaycan tarixində öz yerini şanlı səhifə olaraq aldı. Cərəyan edən bu hadisə milli azadlıq hərəkatı kimi qiymətləndirilidi və Azərbaycanın istiqlaliyyət qazanmasında əsas amil sayılmağa başladı.Sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldıran gün Azərbaycan xalqı bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, o, azad olmağa layiq xalqdır.O tarixdən də-1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur. Dirçəliş Günü bayramımız Azərbaycanın işğal altında olan torpaqlarının azad olunması ilə nəticələnən Qələbə bayramı ilə bir dövrə təsadüf etməyi də noyabr ayını bütünlükdə zəfər ayı halına gətirir. Bayram bayrama qarışır sanki; ən önəmlisi də bu bayramların məğzi eynidir, milli vətənpərvərlik ruhunda, zəfər dadında...

Dirçəliş məfhum olaraq yenidən doğulmaq anlamına gəlmirmi? Küllərindən doğan, zülmə baş qaldıran, əsarətə boyun əyməyən xalqım. Yüz ölsək də ,min dirilərik, biz istəmədiyimiz müddətcə bizi qandala vurmaq olmaz. Hələ çox əvvəllərdən " 40 il zindanda yaşamaqdansa, bir gün azad yaşamağı" daha üstün tutmuşuq biz. Yaşadığımızı yaşatdırmağı bildik, amma etmədik. Bacarardıq, amma bizim öz ədalət kürsümüz, vicdan məhkəməmiz var, özümüz özümüzü mühakimə edə bilirik. Zalıma qoşulub zalım olmadıq, bizim damarımızdan axan türk qanı təmizdir, insanlığa sığan və sığmayanı ayırd edə bilirik. Öncə Allaha, sonra qanuna təslim etdik, budur mənim millətimi bütün dünyadan fərqləndirən. Mübarizənin ən ön sıralarında olmaqdan yorulduq, artıq bizə bayram yaraşır. İkinci bahar yaşayırıq Qarabağımızla, bu eşq tükənməz. Şükür qovuşdurana...

Dirçəlişimiz qutlu olsun, yurdumun insanları, Azərbaycanımızı daim zirvələrdə görmək diləyi ilə...

# Rusiyalı ekspert:
## Ermənistan Azərbaycanın 8 kəndini ”quzu balası kimi” qaytaracaq

**Andrey Petrov:** Azərbaycan bütün problemlərini həll edərək yaxşı yaşayır, Ermənistan isə təcrid olunmuş vəziyyətdə qalmaqda davam edir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

**Hazırda Cənubi Qafqaz regionunda münaqişə potensialı demək olar ki, sıfıra enib və Ermənistan tərəfindən heç bir qarşıdurma hərəkəti gözləmək olmaz. Bu həm də ona görə baş verir ki, Qarabağ məsələsinin bağlanması təkcə Azərbaycanın deyil, qəribə də olsa, Ermənistanın da strateji problemlərini həll edib.**




Bunu ”Vestnik Kavkaza” agentliyinin baş direktorunun müavini, rusiyalı politoloq Andrey Petrov ”Caliber” analitik mərkəzinə açıqlamasında deyib. Politoloqun fikirlərini oxucularımıza təqdim edirik.

”Qarabağ məsələsi Paşinyan üçün böyük problem idi, çünki onun Qarabağda heç vaxt şəxsi maraqları olmayıb, o, ancaq hakimiyyətə gəlməmişdən xeyli əvvəl əsası qoyulmuş və sponsorlar tərəfindən aparılmağa məcbur edilən siyasətin davam etdirilməsi ilə məşğul olub. Qərbdə erməni diasporunun nümayəndələri, eləcə də Rusiya ilə sərhəddə gərginlik və qarşıdurma ocaqları yaratmaqda maraqlı olan Qərb siyasətçilərinin sifarişi ilə. Üstəlik deyə bilərik ki, Paşinyan bu dilemmanı özü üçün demək olar ki, ağrısız həll etdi. Sentyabrın 19-20-də Qarabağ separatçılarının özözünü buraxdıqlarını elan etməsindən sonra İrəvanda ciddi iğtişaşlar və ya dövlət çevrilişi baş vermədi. Baxmayaraq ki, risklər var idi. Maraqlıdır ki, Ermənistanın əvvəlki rəhbərliyi bu müddət ərzində praktiki olaraq kölgədən çıxmayıb və onların hazırda nə işlə məşğul olduqları bəlli deyil.

Bu problem həll olunduğundan Paşinyanın onu yenidən, məsələn, şərti Ermənistan-Azərbaycan sərhədində təxribatlar şəklində yaratmaq motivi yoxdur. Ona görə də hesab edirəm ki, Paşinyan hakimiyyətdə olduğu müddətdə Ermənistan Azərbaycana qarşı yeni ərazi iddiaları ilə çıxış etməyəcək. Ona görə də regionda münaqişə üçün heç bir ilkin şərt yoxdur”, - deyə politoloq bildirib.

Onun fikrincə, indi Ermənistan Qarabağı tərk edən ermənilərlə bağlı sızlamaq siyasətini davam etdirəcək, lakin Azərbaycanı bezdirmək üçün deyil, guya bu ”qaçqınları” təmin etmək üçün Qərbdən daha çox pul almaq üçün.

”Eyni zamanda, Azərbaycanın Ermənistanla bağlı hələ də sualları var. Bura ərazilərin işğalı nəticəsində dəymiş dəhşətli ziyana görə kompensasiyanın ödənilməsi, 8 Azərbaycan kəndinin qaytarılması tələbi də daxildir”,- politoloq xatırladıb.

Andrey Petrov hesab edir ki, Ermənistan bu kəndləri ”sakit şəkildə” Azərbaycana qaytaracaq. Çünki yenə də Ermənistanın onları geri qaytarmamaq üçün nəsə etməyə imkanı yoxdur. Paşinyan isə millətçilərdən təhlükə görməyəcək. Amma yenə də bu proses zamanı bazarlıq etməyə çalışacaq.

Paşinyan indi Azərbaycandan daha çox Türkiyə ilə sərhədin açılmasında və oradan Ermənistan nəqliyyat axınının inkişafında maraqlıdır. Amma Türkiyə şərt qoyur- Azərbaycanla münasibətləri yaxşılaşdırsın, ona görə də, görünür, proses irəliləməyəcək,- rusiyalı ekspert deyir.

”İrəvanın praktiki olaraq strategiyasını dəyişmək arzusu yoxdur, bunu ”heç nə etməmək” strategiyası kimi təsvir etmək olar. Azərbaycan artıq onun üçün hər şeyi edib: torpaqlarını işğaldan azad etdi, Qarabağı qaytardı və Paşinyan yalnız Ermənistanın qoşun yeritməyəcəyini və döyüş əməliyyatlarına başlamayacağını bəyan etməli oldu. Ona görə də hesab edirəm ki, Paşinyan bundan sonra da bu davranış xəttinə sadiq qalacaq. İrəvanın sərhədin delimitasiyasına belə marağı yoxdur, hərçənd ki, kommunikasiyaların qarşısını almaq istəyi var, bunu ləngidir, çünki ölkə artıq bir neçə onilliklər ərzində özünü təcrid vəziyyətində yaşamağa verdiş edib. Ərazi itirilməsini və iqtisadi dinamikanı nəzərə alsaq, Paşinyan açıq şəkildə razılaşır ki, Ermənistan daha da Qərbdən və diaspordan asılı dövlətə çevriləcək, yəni, Ermənistanın mövcud olmasını istəyirsənsə, bunun əvəzini ödə.

Mən çox istərdim ki, Ermənistan qonşuları ilə münaqişə etməyən, regiona uğurla inteqrasiya olunmuş normal dövlət kimi yaşasın. Ermənistanın Azərbaycanla sülh müqaviləsi bağlayaraq, sərhədlərini açmaqla özünü rasional aparmaq və normal yaşamaq imkanı var, amma rasional davranmaq və normal yaşamaq arzusu yoxdur- münaqişə elə buradadır. Beləliklə, Paşinyanın ”heç nə etməmək” strategiyası davam etdiriləcək və nəticədə bizdə elə bir təəssürat yaranıb ki, Azərbaycan bütün problemlərini həll edərək yaxşı yaşayır, Ermənistan isə təcrid olunmuş vəziyyətdə qalmaqda davam edir”,- ekspert bildirib.

O, noyabrın 8-də Xankəndində keçirilən hərbi paradda da toxunub: ”Bu parad Azərbaycanın bütün problemlərin həll olunduğu və heç bir maneə olmadan daha da inkişaf etməsinin mümkün olduğu yeni dövrünün simvoludur. Hesab edirəm ki, biz Azərbaycanın separatizm problemindən tamamilə xilas edilməsinin əhəmiyyətini hələ də dərk etməmişik. Amma şəxsən mən İlham Əliyevin Xankəndindəki parad meydanında dayanaraq Azərbaycan hərbçilərini salamladığını görməkdən bir insan kimi sadəcə sevindim. Mən Azərbaycanı bu mühüm nailiyyət, regionun geosiyasi reallığında unikal hadisə münasibətilə ürəkdən təbrik etmək istərdim”, - deyə A.Petrov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# “Azərbaycan Şərqlə Qərb arasında əməkdaşlığın genişlənməsinə xidmət edir”



“Azərbaycan İqtisadi əməkdaşlıq Təşkilatının işində fəal iştirak edir. Ölkəmizin nəqliyyat infrastrukturunun yenidən qurulması, Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin istifadəyə verilməsi İƏT-a daxil ölkələrin beynəlxalq daşımaların səmərəli təşkil olunmasına töhfə vermişdir”. Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.Onun sözlərinə görə, Azərbaycanın ərsəyə gətirdiyi BTQ və Bakı Beynəlxalq Ticarəti Limanı Şərqlə Qərb arasında iqtisadi əməkdaşlıq imkanlarının genişlənməsinə xidmət edir: ”Ölkəmiz İƏT-na daxil ölkələri arasında bərpa olunan enerji resurslarından istifadə etmək istiqamətində ciddi addımlar atan ölkədir. Belə ki, ölkəmizin bərpa olunan enerji potensialı 200 Qeqavat olduğunu hesablanmış və bu istiqamətdə dünyanın aparıcı şirkətlərin investisiyaları hesabına yeni genrasiya gücləri yaradılmaqdadır. İşğaldan azad olunmuş ərazilərin hidroenerji potensialı da 500 Meqavata dəyərləndirlir və yaxın dövrdə 270 meqavat generasiya gücünü bərpa edilərək qlobal gündəliyin icrasında fəallıq nümayiş etdirir. Azərbaycan bütün iqtisadi imkanlarını ECO üzvü dövrlərə açıq olduğunu bildirmişdir”.

A.Badamov onu da bildirdi ki, ölkəmiz həm də ECO-nun institutlaşmasında fəallıq nümayiş etdirib: ”2006-cı ildə ECO-nun ölkəmizdə IX Zirvə görüşündə Mərkəzin Bakı şəhərində təsis edilməsi təklifi Prezident İlham Əliyev tərəfindən yenidən irəli sürülüb və 2021-ci ilin martında təşkilatın Türkiyənin sədrliyi ilə videokonfrans vasitəsilə keçirilmiş XIV toplantısında Mərkəzin nizamnaməsi imzalanıb. Tədqiqat Mərkəzinin əsas fəaliyyət istiqamətləri iqtisadi tədqiqatlara əsaslanan regional əməkdaşlığın qurulması üçün ECO-ya və üzv ölkələrə yardım etməkdir. Bu il oktyabrın 10-da isə Şuşada İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası keçirilib. Eyni zamanda, Şuşa şəhəri 2026-cı il üçün ECO-nun turizm paytaxtı elan edilib. Ölkəmiz ECO-ya daxil ölkələrlə ikitərəfli və müxtəlif platformalarda əməkdaşlıq edir. İƏT-a daxil ölkələr Azərbaycanın ədalətli mövqeyini beynəxlaq təşkilatlarda hər zaman dəstəkləmişdir. O cümlədən Özbəkistan və Qazaxıstan yenidən qurulan Füzulidə orta məktəb və yaradıcılıq mərkəzi tikərək hədiyyə etmişdir. Azərbaycan işğaldan azad edilmiş əraziləri yenidən qurub bərpa edərək Zəngəzur dəhlizinin açılması üçün infrastrukturu hazır vəziyyətə gətirir. Bu dəhlizin açılışı İƏT-ə daxil ölkələrin iqtisadi əməkdaşlıq imkanlarını genişləndirəcəkdir. Azərbaycan Prezidenti Özbəkistanda keçirilmiş İƏT-nın 16-cı Zirvə Toplantısında bu təşkilatın ölkəmizə verdiyi dəstəyi yüksək dəyərləndirərək iqtisadi əməkdaşlıq potensialımızı bir daha diqqətinə çatdırmışdır. İƏT-üzvü ölkələri arasında əməkdaşlığın genişlənməsi yeni dünya düzənində ölkələrimizi bir-birinə daha yaxınlaşdıracaqdır”.

SON SƏHİFƏ
SƏS
15 noyabr
2023-cü il

# Avropanın ən yaxşı 10 liqasının bombardirləri açıqlanıb



**Avropanın ən yaxşı 10 liqasının bombardirləri açıqlanıb. SİA "NTV Spor"a istinadən xəbər verir ki, Almaniyanın "Bavariya" klubunun hücumçusu Harri Keyn 11 oyunda vurduğu 17 qolla siyahıya başçılıq edir.**

"Ştutqart"ın (Almaniya) forvardı Seru Girasi 9 matçda 15 qolla ikinci, İngiltərənin "Mançester Siti" klubunda çıxış edən norveçli Erlinq Holann isə 12 görüşdə 13 qolla üçüncü pillədə qərarlaşıb.

İlk "iyirmilik"də Türkiyə Superliqasından dörd futbolçu yer alıb.

Avropanın ən yaxşı 10 liqasının bombardirləri:

**1.** Harri Keyn ("Bavariya", Almaniya) - 11 oyun, 17 qol
**2.** Seru Qirasi ("Ştutqart", Almaniya) - 9 oyun, 15 qol
**3.** Erlinq Holann ("Mançester Siti", İngiltərə) - 12 oyun, 13 qol
**4.** Kilian Mbappe (PSJ, Fransa) - 11 oyun, 13 qol
**5.** Lautaro Martines ("İnter", İtaliya) - 12 oyun, 12 qol
**6.** Mateo Kassiyerra ("Zenit", Rusiya) - 14 oyun, 12 qol
**7.** Məhəmməd Salah ("Liverpul", İngiltərə) - 12 oyun, 10 qol
**8.** Edin Dzeko ("Fənərbağça", Türkiyə) - 12 oyun, 10 qol
**9.** Cud Bellinqem ("Real Madrid", İspaniya) - 11 oyun, 10 qol
**10.** Mauro İkardi ("Qalatasaray", Türkiyə) -12 oyun, 10 qol
**11.** Simon Bansa ("Braqa", Portuqaliya) - 11 oyun, 10 qol
**12.** Kevin Denki ("Serkl Brügge", Belçika) - 14 oyun, 10 qol
**13.** Abubakari Koyta ("Sent-Trüden", Belçika) - 14 oyun, 10 qol
**14.** Lois Openda ("Leyptsiq", Almaniya) - 11 oyun, 9 qol
**15.** Kasper Dolberq ("Anderlext", Belçika) - 13 oyun, 9 qol
**16.** Mame Tiam ("Kayserispor", Türkiyə) - 12 oyun, 9 qol
**17.** Leroy Sane ("Bavariya", Almaniya) - 11 oyun, 8 qol
**18.** Aytaç Kara ("Kasımpaşa", Türkiyə) - 12 oyun, 8 qol
**19.** Son Xin Min ("Tottenhem", İngiltərə) - 12 oyun, 8 qol
**20.** Antuan Qrizmann ("Atletiko", İspaniya) - 12 oyun, 8 qol

## "Formula 1"ə görə vergi güzəştlərinin müddəti daha 3 il uzadılır



"Formula 1" yarışına görə vergi güzəştlərinin müddəti daha 3 il uzadılır. SİA-nın xəbərinə görə, bu, Milli Məclisin bu gün keçirilən iclasında I oxunuşda müzakirəyə çıxarılan Vergi Məcəlləsinə dəyişiklik layihəsində əksini tapıb.

Dəyişikliklə Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışlarına aid qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri - 2018-ci il yanvarın 1-dən 9 il müddətinə vergidən azad olacaq. Hazırda bu müddət 2018-ci il yanvarın 1-dən 6 il nəzərdə tutulub.

Müzakirələrdən sonra dəyişiklik layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

## "Titanik"in menyusu bu qiymətə satıldı

"Titanik" gəmisində birinci dərəcəli sərnişinlər üçün axşam yeməyi menyusu hərracda 84 min funta (175 min AZN) satılıb. SİA xəbər verir ki, bu barədə BBC məlumat yayıb. Belə ki, 1912-ci il aprelin 11-də axşam yeməyində istiridyə, mal əti, quzu əti və mallard ördəyi verilib.



Həmçinin, hərraca çıxarılan digər əşyalar arasında ikinci dərəcəli "Titanik" sərnişini Sinai Kantora məxsus İsveçrə istehsalı cib saatı da var idi. O 97.000 funta (202 min AZN) satılıb.

Bundan əlavə, sərnişinlərin xilas edilməsi zamanı istifadə oluna bilən birinci dərəcəli tartan naxışlı göyərtə yorğanı da 96.000 funta (200 min AZN) satılıb.

Qeyd edək ki, 14 aprel 1912-ci ildə "Titanik" gəmisinin Atlantik Okeanında aysberqə çırpılması və qayığın batması nəticəsində 1500-dən çox insan həlak oldu.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Xarici media nümayəndələri və turoperatorlar turizm imkanları ilə tanış olub



Azərbaycanın ornitoloji turizm üzrə potensialının təqdim olunması məqsədilə Azərbaycan Turizm Bürosu tərəfindən noyabrın 8-dən 13-dək Böyük Britaniya, İsveç, Bolqarıstan və Cənubi Afrika Respublikasından olan media nümayəndələri və quş müşahidəsi üzrə ixtisaslaşmış turoperatorlar üçün tanıtım səfəri təşkil edilib. Dövlət Turizm Agentliyindən SİA-ya bildirilib ki, səfər zamanı xarici qonaqlar "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun ərazisində quşların Qafqaz dağları ilə Xəzər dənizi arasında 90 kilometr uzunluğunda keçid yolunu əhatə edən "darboğaz"ı ziyarət edərək, payız miqrasiyasını müşahidə ediblər.

Bundan əlavə, Azərbaycanda əsas quş müşahidəsi əraziləri kimi tanınan Şirvan, Qızılağac, Hirkan Milli parkları, Mahmudçala gölü, Varvara su anbarı, Xızı dağları, eləcə də digər ərazilərə səfərlər həyata keçirilib, Azərbaycanda mövcud olan nadir quş növləri müşahidə edilib.

Proqram çərçivəsində səfər iştirakçıları üçün ornitoloji turizmlə bağlı təqdimatlar, həmçinin B2B formatlı görüşlər təşkil olunub.

Qeyd edək ki, Dövlət Turizm Agentliyinin tabeliyində olan "Beşbarmaq" Dövlət Tarix və Mədəniyyət qoruğu və digər müvafiq ərazilərdə ekoturizmin vacib bir istiqaməti kimi ornitoloji turizm imkanlarının inkişaf etdirilməsi və təşviqi prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**